DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 05 (367) / MAY 2022-Cİ İL




Türkiyə-Azərbaycan qardaşlığı, birliyi xalqlarımız üçün əsas yol istiqamətidir, bölgə üçün, dünya üçün də çox önəmli amildir, təhlükəsizlik, sabitlik amilidir. Nə qədər Türkiyə və Azərbaycan bir yerdə inamla addımlasa, bölgəmizdə sülh və barış o qədər də möhkəm olacaqdır. Bunu biz və bütün dünya İkinci Qarabağ müharibəsi zamanı gördük. Türkiyə bizim yanımızda idi. Əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın müharibənin ilk saatlarında "Azərbaycan tək deyil, Türkiyə onun yanındadır" deməsi bizə əlavə güc verdi, ruh verdi, inam verdi. Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq.

Bizim tariximiz parlaqdır və tariximizin ən önəmli anlarında biz bir yerdə idik. Xatırlayıram, Bakının erməni işğalından azad edilməsinə həsr olunmuş hərbi paradda Türkiyə və Azərbaycan əsgərləri çiyin-çiyinə Azadlıq meydanına çıxmışdılar. Bunun təkrarını biz 2020-ci ildə Zəfər paradında gördük. Tarixi Zəfərimizdən sonra yenə də əziz qardaşımla birlikdə Azadlıq meydanında biz Türkiyə və Azərbaycan ordularının hərbi paradını qəbul etdik. Bu, birliyimizin təntənəsi idi. Bu, bütün dünyaya verilən aydın mesaj idi ki, biz bir yerdəyik, bir yerdə olacağıq, gücümüz də gündən-günə artacaq.

...Mən dəfələrlə demişəm ki, Türkiyənin artan gücü bizi gücləndirir və biz bir-birimizə güc qataraq böyük dünya çapında bir güc mərkəzinə çevrildik.

Türkiyənin uğurlu inkişafı, ilk növbədə, Prezident Rəcəb Tayyib Ərdoğanın adı ilə bağlıdır. Mən də öz fəaliyyətimdə həmişə çalışmışam ki, Azərbaycan xalqının və dövlətinin milli maraqlarını müdafiə edim, Azərbaycanın müstəqil siyasətini təmin edim. Bizim aramızdakı qardaşlıq bütün Türkiyə və Azərbaycan xalqına örnək olmalıdır.

**Prezident İlham Əliyev**

Bakıda keçirilən "TEKNOFEST Azərbaycan" festivalındakı çıxışından
28 may 2022-ci il

## DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNDƏ MÜŞAVİRƏ KEÇİRİLİB



Səh. 2

## "MİLLİ-MƏNƏVİ VƏ MƏDƏNİ İRSİMİZİN TƏŞƏKKÜLÜNDƏ ŞUŞA" MÖVZUSUNDA RESPUBLİKA ELMİ KONFRANSI TƏŞKİL EDİLİB




Səh. 3

## "HEYDƏR ƏLİYEV SİYASƏTİ TOLERANTLIQ" MÖVZUSUNDA KONFRANS KEÇİRİLİB



Səh. 6

## DİN XADİMLƏRİNİN ATTESTASİYADAN KEÇİRİLMƏSİ ÜÇÜN ATTESTASİYA KOMİSSİYASI YARADILIB



Səh. 10

# PREZİDENT İLHAM ƏLİYEV VƏ BİRİNCİ XANIM MEHRİBAN ƏLİYEVA ZƏNGİLAN MƏSCİDİNDƏ TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞ OLUBLAR






Mayın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Paşa Holding" MMC-nin dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən inşa olunan Zəngilan məscidində tikinti işlərinin gedişi ilə tanış olublar.

Prezidentin köməkçisi Anar Ələkbərov görülən işlər barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verib.

Ermənistanın torpaqlarımızı işğal altında saxladığı otuz il ərzində digər ərazilərimizdə olduğu kimi, Zəngilan rayonunda da tarixi, dini, mədəniyyət abidələrimiz erməni vandalizminə məruz qalıb, dağıdılıb, təhqir edilib. İşğal dövründə Zəngilan şəhərindəki məsciddən də tövlə kimi istifadə olunub.

Rayonun işğaldan azad edilməsi nəticəsində buradakı tarixi, memarlıq abidələri də erməni əsarətindən qurtuldu. Otuz ilə yaxın işğal dövründə dağıdılan, təhqir olunan dini abidələrimizin, məscidlərimizin yenidən həyata qaytarılması prosesində Heydər Əliyev Fondu müstəsna xidmət göstərir. Qarabağdakı dini abidələrin, məscidlərin bərpası işləri sürətlə davam etdirilir.

Zəngilan məscidinin bərpasının təməl daşı dövlətimizin başçısı İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və qızları Leyla Əliyevanın iştirakı ilə ötən il aprelin 26-da qoyulub, bərpa işləri fasiləsiz həyata keçirilir.

## DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNDƏ MÜŞAVİRƏ KEÇİRİLİB





Mayın 11-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) müşavirə keçirilib. Tədbirdə Dövlət Komitəsinin rəhbərliyi, eləcə də mərkəzi Aparatın və bölgə şöbələrinin müdirləri iştirak ediblər.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ölkədəki dini durum, Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 488-VIQD nömrəli Qanununun tətbiqi və "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq edilmiş "Dini etiqad azadlığı haqqında" qanuna uyğun olaraq hazırlanan "İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması, attestasiyası və tutduğu vəzifədən azad edilməsi Qaydası"na dəyişikliklər edilməsi ilə bağlı fikirlərini bildirib. Vurğulayıb ki, hələ də dünyada din amilindən müxtəlif təxribatlar törətmək, məkrli planlar həyata keçirmək məqsədilə istifadə edən qüvvələr var. Azərbaycanda dini təhdidlərin qarşısını almaq üçün önləyici, qabaqlayıcı tədbirlər davam etdirilir, bununla yanaşı, maarifləndirmə işləri, milli kadrların hazırlanması prosesi həyata keçirilir. Ölkəmizdə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən dini dəyərlərə, ibadət yerlərinə, din adamlarına xüsusi diqqət və qayğı göstərilir.

Din xadimlərinin Vətənə, xalqa, azərbaycançılıq ideologiyasına bağlı olmalarının önəmini bildirən Komitə sədri qeyd edib ki, dövlətçilik mənafelərini və maraqlarını qorumaq, azərbaycançılıq ideyasına və mənəvi dəyərlərə sədaqət hər zaman öncül yer tutmalıdır. Din xadimləri cəmiyyətin mənəvi baxımdan sağlamlığına xidmət etməli, xalqımıza xas mənəvi dəyərləri yaşatmalı, xurafat, dini dözümsüzlük və ayrı-seçkilik halları ilə mübarizə aparmalı, Azərbaycan xalqının tolerant və multikultural ənənələrini qorumalıdırlar. Ölkəmizdə dini-mənəvi mühitin qorunub saxlanılmasında peşəkar kadrlara olan ehtiyac, eləcə də Azərbaycanın xarici dini təsirlərdən asılılığını azaltmaq baxımından Azərbaycan İlahiyyat İnstitutunun və Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılmasının əhəmiyyətini vurğulayan M.Qurbanlı qarşıda duran vəzifələrə diqqət çəkib.

"Dini etiqad azadlığı haqqında" Qanuna edilən dəyişikliklərin Dövlət Komitəsinin üzərinə ciddi məsuliyyət qoyduğunu bildirən DQİDK sədri mərkəzi Aparat və bölgə şöbələrinin bu istiqamətdə fəaliyyətini daha da genişləndirməli olduğunu qeyd edib.

Dövlət Komitəsi sədrinin müavini Gündüz



İsmayılov "İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması, attestasiyası və tutduğu vəzifədən azad edilməsi Qaydası" barədə ətraflı məlumat verərək din xadiminin təyin edilməsi məqsədilə müsahibə elanının verilməsi ilə bağlı təşkilati məsələlər, müsahibənin keçirilməsi qaydası, din xadimlərinin attestasiyasının keçirilməsi barədə ətraflı məlumat verib.

Müşavirə müzakirələrlə davam edib və müvafiq tapşırıqlar verilib.

# DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN ƏMƏKDAŞLARI ULU ÖNDƏRİN MƏZARINI ZİYARƏT EDİBLƏR

Azərbaycan xalqının Ümummilli Lideri, dahi şəxsiyyət Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü ilə əlaqədar Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin kollektivi Fəxri xiyabanda Ulu Öndərin xatirəsini ehtiramla yad edərək, məzarı önünə gül dəstələri qoyublar.



# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ ŞABRANDA VƏTƏNDAŞLARI QƏBUL EDİB



Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı mayın 27-də Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən rayonlarından olan vətəndaşların müraciətlərinə baxıb.

Qəbuldan öncə Komitə sədri Mübariz Qurbanlı və Şabran Rayon İcra Hakimiyyətinin başçısı Asif Hüseynov Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Şabran rayon Heydər Əliyev Mərkəzində baş tutan qəbul zamanı Komitənin fəaliyyət istiqamətlərinə uyğun olan müraciətlər cavablandırılıb, qaldırılan məsələlərin həlli ilə əlaqədar müvafiq göstərişlər verilib.

# "MİLLİ-MƏNƏVİ VƏ MƏDƏNİ İRSİMİZİN TƏŞƏKKÜLÜNDƏ ŞUŞA" MÖVZUSUNDA RESPUBLİKA ELMİ KONFRANSI TƏŞKİL EDİLİB






Mayın 5-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) tabeliyində fəaliyyət göstərən Azərbaycan İlahiyyat İnstitutunun (Aİİ) təşkilatçılığı ilə "Milli-mənəvi və mədəni irsimizin təşəkkülündə Şuşa" mövzusunda respublika elmi konfransı keçirilib.

Konfransda Vətən müharibəsində şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Daha sonra DQİDK-nin sifarişi ilə çəkilmiş "Şuşa – mənəviyyat incisi" filmi nümayiş olunub.

Dosent Anar Qafarovun moderatorluğu ilə baş tutan tədbirdə Aİİ rektoru Aqil Şirinov açılış nitqi ilə çıxış edib. Rektor Aİİ-nin yeni inzibati binasında ilk tədbirin məhz Şuşa mövzusunda konfransa həsr olunmasının önəminə diqqət çəkərək, bundan məmnunluğunu ifadə edib. Konfransın Ulu Öndərin anadan olmasının ildönümünə təsadüf etdiyini və Heydər Əliyevin Şuşa ilə bağlı fəaliyyətini diqqətə çatdıran rektor Vətən Müharibəsində şəhid olanları yad edib, qazilərə Allahdan şəfa diləyib.

DQİDK-nin sədri Mübariz Qurbanlı çıxışına Vətən Müharibəsi şəhidlərini yad etməklə başlayıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Şuşa İli" ilə bağlı Sərəncamından irəli gələrək təşkil olunan konfransın işini yüksək qiymətləndirib.

M.Qurbanlı Ulu Öndər Heydər Əliyevin milli-mənəvi dəyərlərimizin inkişafındakı rolu barədə danışaraq dahi şəxsiyyətin yüksək xidmətlərini qeyd edib. Həmçinin Prezident İlham Əliyevin rəhbərliyi ilə Ermənistanın hərbi təcavüzü nəticəsində öz ata-baba yurdlarından köçkün düşmüş insanların doğma torpaqlarına qayıdışının təmin edilməsi üçün işğaldan azad olunmuş ərazilərdə aparılan geniş quruculuq işlərinə, Heydər Əliyev Fondunun xalqımıza məxsus mədənidini irsin yenidən dirçəldilməsi istiqamətindəki fəaliyyətinə diqqət çəkib.

Şuşanın Azərbaycan tarixindəki müstəsna yerini vurğulayan Komitə sədri işğaldan sonra dağıdılmış, viran olmuş şəhərin yenidən bərpası ilə burada elm adamlarının, tarixi şəxsiyyətlərin yetişəcəyinə ümidvar olduğunu bildirib. O, Aİİ tələbələrinin və əməkdaşlarının milli-mənəvi dəyərlərin təbliği və təşviqi istiqamətində öz sözlərini deyəcəklərinə əmin olduğunu vurğulayıb.

Aİİ-nin fəaliyyətinə toxunan sədr bu il ilk məzun buraxılışı olacaq ali təhsil müəssisəsinə uğurlar arzulayıb.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini hacı Fuad Nurullayev konfrans iştirakçılarını salamlayıb. O, Azərbaycanda hökm sürən multikultural dəyərlərə, tolerantlığa diqqət çəkərək, Aİİ-nin din təhsili sahəsində fəaliyyətini yüksək qiymətləndirib. Şuşanın azad olunmasında şəhid olanları rəhmətlə anaraq, qazilərə şəfa diləyib.

Millət vəkili Ceyhun Məmmədov Aİİ-nin yeni inzibati binasında konfransın təşkilini yüksək qiymətləndirərək onun əhəmiyyətini vurğulayıb. Ali Baş Komandan cənab İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində azad olunan torpaqlarımızın tarixboyu hər zaman öz alçaqlığı, qəddarlığı ilə seçilən erməni vandalları tərəfindən necə talan olunduğunu vurğulayıb. C.Məmmədov Şuşanın işğaldan azad olunduqdan sonra bərpası ilə bağlı məsələləri diqqətə çatdırıb.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov Şuşanın işğal dövründə talan edilməsi və abidələrin dağıdılması məsələlərinə toxunub. İcraçı direktor Şuşanın bərpası ilə bağlı fəaliyyət göstərən komissiyanın üzvü olduğunu və bütün prosesin birbaşa Şuşa şəhərinin qorunmasına, yenidən qurulmasına, öyrənilməsinə, inkişafına və təbliğinə yönəldiyini vurğulayıb. R.Həsənov Mənəvi Dəyərlərin Təbliği Fondu və Mədəniyyət Nazirliyi ilə birlikdə nəşr etdirdikləri ingilis və Azərbaycan dillərində olan Şuşa haqqında kitabı Aİİ-yə hədiyyə edib.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov qeyd edib ki, uzun illər torpaqlarımızın işğalından aldığımız sarsıntı ilə böyüdük. Bugünkü nəsil xoşbəxtdir ki, Azərbaycanın tarixinə qızıl hərflərlə yazılan Zəfər Gününü gördülər. M.İsmayılov hazırda Azərbaycanın işğaldan azad olunmuş torpaqlarında azan səsinin eşidildiyini qeyd edib.

İlahiyyat fakültəsinin məzunu, 44 günlük Vətən Müharibəsinin şəhidi Vüqar Məmmədoun anası Əsmər Məmmədova oğlu haqqında danışarkən qeyd edib ki, Vüqar Qarabağın azadlığı uğrunda canından keçib, müharibənin 14-cü günü şəhid olub. Aprel döyüşlərində iştirak edən Vüqar son arzusunu yerinə yetirərək kəşfiyyatçı kimi döyüşlərə qoşulub. Şəhid anası qeyd edib ki, oğlunun ən böyük arzusu Şuşanı azad görmək idi. Şükürlər olsun ki, onun bu arzusu gerçəkləşdi.

Konfrans panellərlə davam etdirilib.

# QURTULUŞDAN ZƏFƏRƏ

Tarixi təcrübələrə görə, müdrik liderlər göstərdikləri xidmətlərin miqyasına və əhəmiyyətinə görə dünyada fərqli səviyyədə qəbul olunurlar. Onlardan bəzilərinin fəaliyyəti mənsub olduqları dövlətin hüdudları ilə məhdudlaşır və yalnız öz doğma Vətənində hörmətlə yad edilir.

Elə tarixi şəxsiyyətlər də vardır ki, onlar zaman və məkan anlayışına, milli ölçülərə sığmayaraq dünya miqyasında tanınır və qlobal səviyyədə başqaları üçün örnəyə çevrilirlər. Bu baxımdan Ulu Öndər Heydər Əliyev müdrik siyasəti ilə ümumdünya tarixində özünə dərin iz qoymuş dahi liderdir. Azərbaycanın tərəqqisi naminə yorulmaz fəaliyyət göstərməsi, regional və beynəlxalq təhlükəsizliyin təmin olunması istiqamətində məqsədyönlü və uzaqgörən siyasət aparması, bu sahədə böyük uğurlar əldə etməsi Heydər Əliyevin liderliyini səciyyələndirən vacib xüsusiyyətlərdir.

**Liderlik keyfiyyətləri və inkişaf**

Qeyd edək ki, hələ sovet dövründə Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi illərdə böyük uzaqgörənliklə Azərbaycanın gələcəkdə müstəqil dövlət kimi yaşamasını təmin edəcək sosial-iqtisadi və milli-mənəvi bünövrənin yaradılması üçün mühüm işlər görmüşdür. Bunun nəticəsində respublikamızda genişmiqyaslı quruculuq işləri aparılmış, çoxsaylı iri sənaye müəssisələri, o cümlədən ittifaq əhəmiyyətli strateji obyektlər yaradılmışdır. Aqrar respublika olan Azərbaycan aqrar-sənaye respublikasına çevrilmişdir. Respublikada xeyli sayda yeni ali və orta ümumtəhsil məktəbləri fəaliyyətə başlamış, kadr potensialının gücləndirilməsi məqsədilə Azərbaycan gəncləri SSRİ-nin nüfuzlu ali məktəblərinə oxumağa göndərilmişdir. Milli hərbi kadrların yetişdirilməsi və Sovet İttifaqının hərbi ali məktəblərinə azərbaycanlı gənclərin daxil olmasını təmin etmək üçün 1971-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Məktəb yaradılmışdır. Sovet dövrünün siyasi-ideoloji qadağalarına baxmayaraq, xalqımızın milli-mənəvi dəyərləri qorunaraq zənginləşdirilmişdir. Azərbaycançılıq məfkurəsinin ictimai fikirdə aparıcı yer tutması məqsədilə əlverişli ictimai-siyasi, elmi-mənəvi mühit formalaşdırılmışdır. Xalqımızın mədəniyyəti, incəsənəti və ana dilinin inkişafı üçün yeni mərhələnin əsası qoyulmuşdur. Milli özünüdərk hissi güclənmiş, milli mənlik şüuru inkişaf etmişdir.

Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra Azərbaycanda demokratik siyasi sistemə və bazar iqtisadiyyatına keçidi təmin etmək məqsədilə islahatların aparılmasına başlanıldı. Heydər Əliyev cəmiyyətin bütün sahələrini əhatə edən islahatların konseptual əsaslarını, başlıca hədəflərini müəyyən etdi və bununla bağlı məqsədyönlü siyasət apardı. Məlumdur ki, həmin dövrdə respublikamızda islahatların həyata keçirilməsinə maneçilik törədən faktorlar mövcud idi. Ermənistanın hərbi təcavüzü nəticəsində Dağlıq Qarabağ və ətraf rayonların işğal olunması, sosial-iqtisadi böhranla, daxili və xarici dairələrin antimilli fəaliyyəti ilə üzləşməsi kimi səbəblər Azərbaycanın inkişafı üçün ciddi problemlər yaradırdı. Heydər Əliyev bu cür mürəkkəb və gərgin şəraitdə müdrik liderə məxsus uzaqgörən siyasət aparmaqla respublikamızda ictimai-siyasi sabitliyin yaradılmasına nail oldu və geniş islahatların həyata keçirilməsinə başlanıldı. Bunun nəticəsində sosialyönümlü bazar iqtisadiyyatı münasibətləri inkişaf etdi, ölkədə mövcud olan iqtisadi, texnikiistehsal və elmi-texniki potensial təsərrüfat dövriyyəsinə cəlb olundu, milli iqtisadiyyatın dünya iqtisadiyyatına inteqrasiyası təmin edildi. Davamlı və dinamik xarakter daşıyan islahatlar mahiyyət etibarilə inkişafın yeni - Azərbaycan modelini yaratdı.

Heydər Əliyev Azərbaycanın iqtisadi inkişafı naminə respublikanın zəngin karbohidrogen ehtiyatlarından səmərəli istifadəni vacib hesab edirdi. Ölkə iqtisadiyyatının hərtərəfli inkişafı məqsədilə neft amilindən məharətlə istifadə etməsi, böyük təzyiqlərə baxmayaraq 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanmasına nail olması Heydər Əliyevin yüksək siyasi iradəsinin və qətiyyətinin təntənəsi idi. Bu sənəd Azərbaycanın qapılarını bütün dünyanın üzünə açdı, yeni müqavilələrin imzalanmasına və ölkəyə investisiya qoyuluşuna münbit şərait yaratdı. "Əsrin müqaviləsi"nin imzalanması və onun reallaşdırılması Heydər Əliyevin əsasını qoyduğu neft strategiyasının möhtəşəm uğuru idi. Ümumiyyətlə, dahi şəxsiyyətin 1993-2003-cü illərdə Azərbaycana rəhbərliyi dövründə respublikamızın keçdiyi inkişaf yoluna, qazanılan nailiyyətlərə nəzər saldıqda görürük ki, ölkəmiz sözün əsl mənasında böyük zirvələr fəth etmiş, beynəlxalq münasibətlər sistemində söz və nüfuz sahibinə çevrilmişdir.

**Dövlətçilik prinsipinin aparıcı xətti - azərbaycançılıq ideologiyası**

Hər bir dövlətin uzunömürlülüyünü təmin edən, cəmiyyəti öz ətrafında birləşdirən və xalqın milli maraqlarına söykənən ideologiyaya ehtiyacı vardır. Çoxmillətli və çoxkonfessiyalı ölkələrdə ideologiyanın mövcudluğu daha aktual əhəmiyyət kəsb edir. Buna görə də Heydər Əliyevin müəyyən etdiyi dövlətçilik prinsipləri içərisində azərbaycançılıq ideologiyası mühüm əhəmiyyət daşıyır. Respublikamızın müstəqillik yolunda kövrək addımlarla irəlilədiyi ilk illərdə Heydər Əliyevin azərbaycançılıq məfkurəsini milli ideologiya səviyyəsinə qaldırması xalqımızın dövlətçilik tarixində mühüm hadisələrdən biridir. Bu məfkurə milli və dini kimliyi ehtiva edən tarixi dəyər olmaqla yanaşı, həm də Azərbaycan dövlətinin tərəqqisini şərtləndirən bitkin ideoloji konsepsiyadır. Azərbaycançılıq milli və dini münasibətlərin harmonik inkişafını, dini və etnik qruplar arasında birgəyaşayışı, ən başlıcası, xalqımızın milli-mənəvi dəyərlərini özündə təcəssüm etdirir. Heydər Əliyevin müstəqil dövlət quruculuğunu uğurla həyata keçirməsi nəticəsində milliliklə dövlətçilik arasında sarsılmaz vəhdət təmin edildi.

Azərbaycançılıq dövlət siyasətinin əsaslarından birini təşkil edərək özündə milli inkişafın ideoloji tərəflərini birləşdirir. Bu məfkurə milli ideologiyanın bünövrəsi kimi müxtəlif mədəniyyətlər, adət-ənənələr və dini konfessiyalar arasında həmrəylik yaradır. O, birlik və həmrəyliyin simvolu kimi milli maraqlardan çıxış edən güclü dövlət hakimiyyətinə, yüksək milli intizama və özünüdərkə əsaslanır.

Azərbaycançılıq milli və dini konfessional zənginliyi özündə ehtiva edən ideoloji baxışlar sistemi kimi müstəqil dövlətçiliyin möhkəmlənməsində xüsusi yer tutur. Təsadüfi deyil ki, Heydər Əliyev bu məfkurəni dövlət idarəçiliyi fəlsəfəsinin əsas tezislərindən biri kimi irəli sürərək bildirmişdir: "Azərbaycan Respublikasının ərazisində olan hər bir vətəndaş milliyyətindən, dinindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, eyni hüquqa malik olmalıdır. Əgər biz bu məfhumları rəhbər tuta bilsək və bunu əməli surətdə həyata keçirə bilsək, biz Azərbaycan Respublikasında olan bütün xalqların, bütün millətlərin tam birləşməsini təmin edə bilərik. Bu, bizim əsas vəzifələrimizdən biridir".



Azərbaycanda dini-mədəni müxtəlifliyin qorunması istiqamətində ardıcıl dövlət siyasətinin həyata keçirilməsi multikultural və tolerant dəyərlərin inkişafına böyük təkan verir.

**Nümunəvi dövlət-din modeli**

Ölkəmiz tarixən dünyada dini dözümlülük ənənələri ilə fərqlənsə də, Azərbaycanın müasir beynəlxalq standartlara cavab verən dünyəvi dövlət-din modeli Heydər Əliyevin xidmətləri sayəsində bərqərar olmuşdur. 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi ilə cəmiyyətin bütün sahələrinin, o cümlədən dini münasibətlərin inkişafı üçün demokratik hüquqi normalar yaradıldı. Ölkəmizdə insan hüquqlarının qorunmasına dair qanunvericilik bazası beynəlxalq hüquq normalarına uyğunlaşdırıldı, dünyəvi dövlət-din münasibətlərinin tənzimlənməsi prinsipləri təsbit olundu, dini etiqad azadlığı ilə bağlı normativ hüquqi aktlara riayət edilməsinə nəzarət gücləndirildi. Dini konfessiyalar arasında tolerantlıq təmin edildi, eləcə də tarixi-dini abidələrimizin tikintisi, bərpası və qorunması istiqamətində mühüm tədbirlərin həyata keçirilməsinə başlanıldı.

Azərbaycanda dini təhlükəsizliyin təmin olunması üçün əlverişli mühit yaradıldı. Sovet dövründə ibadət ocaqlarının fəaliyyətinə, dini ayinlərin icrasına qoyulmuş qadağalar aradan qaldırıldı, yeni ibadət evlərinin əsası qoyuldu. Dövlətin dini sahədə siyasəti milli maraqları ifadə edərək dini sabitliyin qorunmasında vacib rol oynadı. Azərbaycan dünyada dünyəvi, demokratik və hüquqi dövlət olmaqla yanaşı, həm də özünün milli-mənəvi dəyərlərinə söykənən ölkə kimi böyük nüfuz qazanmağa başladı.

Azərbaycan dövləti vicdan və dini etiqad azadlığının qorunması istiqamətində məqsədyönlü siyasət həyata keçirdi, milli təhlükəsizliyin təmin olunmasında əhəmiyyətli yer tutan bu sahəyə daim xüsusi həssaslıqla yanaşıldı. Dini qurumların qanunla müəyyənləşmiş qaydada fəaliyyəti üçün lazımi imkanlar yaradıldı. Heydər Əliyev milliyyətindən, irqindən, dinindən asılı olmayaraq, Azərbaycanda yaşayan hər kəsin bütün sahələrdə hüquq bərabərliyinin dövlət tərəfindən təmin edilməsini prinsipial məsələ kimi bəyan etmişdir: "Ölkəmizin vətəndaşları dini, irqi mənsubiyyətindən, siyasi baxışlarından asılı olmayaraq eyni hüquqlara malikdirlər və onların hüquqları Azərbaycan dövləti tərəfindən qorunur. Əmin ola bilərsiniz ki, biz bu prinsiplərimizə daim sadiq qalacağıq və Azərbaycan vətəndaşlarının din, dil mənsubiyyətindən və siyasi baxışlarından asılı olaraq bir-biri ilə münaqişəyə girməsinə gələcəkdə də yol verməyəcəyik".

**Siyasi kursda varislik**

Ümumdünya tarixindən məlumdur ki, yaşadığı coğrafi ərazidən asılı olmayaraq, xalqların dünyada nüfuzunu artıran yalnız onların maddi-mədəni sərvətləri deyil, həm də mütərəqqi ideyaları ilə tarixi proseslərə ciddi təsir göstərən siyasi liderləridir. Onlar mənsub olduqları xalqın maraqlarını ifadə edərək dünyada uzaqgörən siyasətləri ilə tanınırlar. Belə şəxsiyyətlərdən biri, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyevdir. Onun məqsədyönlü və qətiyyətli siyasəti nəticəsində ölkəmizin bütün sahələrində əldə olunan uğurlar "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" deyən Heydər Əliyev dühasının müdrikliyini və uzaqgörənliyini bir daha sübut edir. Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik fəaliyyətini təhlil etdikdə onun güclü siyasi iradəyə və idarəetmə bacarığına malik, xalqına və dövlətinə bağlı lider olduğunu görürük. Bunun nəticəsidir ki, Azərbaycan davamlı inkişaf edən, dünya siyasətində öz yeri, rolu olan dövlət kimi tanınır, xarici ölkələr ona hörmət və ehtiramla yanaşırlar.

davamı səh. 5

# QURTULUŞDAN ZƏFƏRƏ

əvvəli səh. 4

Heydər Əliyev irsinə sadiqlik, Ulu Öndərin ölkəmizin inkişaf istiqamətlərini müəyyənləşdirən siyasi kursunun zənginləşdirilməsi və müasir dövrün çağırışlarının obyektiv qiymətləndirilməsi Azərbaycanın tərəqqisini şərtləndirən mühüm faktorlardır. Yeni tipli siyasətçi və dövlət rəhbəri kimi dünyada diqqət mərkəzində olan Prezident İlham Əliyev inamla xalqımızı Heydər Əliyevin ideyaları ətrafında birləşdirir. Heydər Əliyevin siyasi kursunu zamanın tələbinə uyğun şəkildə, məharətlə davam etdirən Prezident İlham Əliyevin apardığı siyasət özündə xalqımızın milli maraqlarını əks etdirir. Davamlı iqtisadi inkişafa malik olması, sosial, humanitar və digər sahələrdə böyük nailiyyətlər əldə etməsi Azərbaycanın dünya birliyində mövqeyini gücləndirir. Milliyyətindən və dini baxışlarından asılı olmayaraq hər kəsin hüquqlarının qorunması, müxtəlif millətlərin mədəniyyətlərinin və adət-ənənələrinin inkişafına şərait yaradılması vətəndaş həmrəyliyini möhkəmləndirir. Azərbaycan fərqli sivilizasiyaların qovuşduğu tolerant məkan kimi ümumbəşəri dəyərlərin inkişafına mühüm töhfələr verir. Prezident İlham Əliyevin siyasətində xalqımızın sosial rifahının yaxşılaşdırılması, neft strategiyasının uğurla davam etdirilməsi, Azərbaycanın maddi resurslarından əldə edilən gəlirlərin ölkənin inkişafına yönəldilməsi, xalqımızın milli-mənəvi, tolerant dəyərlərinin təbliği mühüm yer tutur.

Dövlət-din münasibətlərinin inkişafı məqsədilə həyata keçirilən siyasət Azərbaycanın multikultural və tolerant dəyərlərin inkişaf etdiyi dünyəvi dövlət kimi dünyada nüfuzunu artırır. Ölkəmizdə yalnız əksəriyyət təşkil edən müsəlmanlara deyil, eləcə də digər dinlərin nümayəndələrinə bərabər münasibət göstərilir ki, bu da milli-dini kimliyi qoruyan vacib şərtlərdən biridir. Azərbaycan dövləti qloballaşmanın milli-dini kimliyə təsirini daim diqqətdə saxlayır. Bununla bağlı olaraq Prezident İlham Əliyev demişdir: "Müasir dövrdə qloballaşma şəraitində ayrı-ayrı ölkələrin, regionların və bütövlükdə dünyanın təhlükəsizliyinə təhdidlər artmaqda davam edir, bu təhdidlərin həyata keçirilmə forma və üsulları isə daha da mürəkkəb və təhlükəli xarakter alır".

Prezident İlham Əliyevin siyasətində qloballaşma dövrünün çağırışları ilə xalqımızın milli-dini kimliyinin mahiyyətindən irəli gələn tələblərin uzlaşdırılması xüsusi yer tutur. Bu sahədə siyasət aparılarkən nəzərə alınır ki, qloballaşma ilə milli-dini kimlik arasındakı qarşılıqlı təsirə və onun nəticələrinə xüsusi diqqət yetirilməsi vacibdir. Belə ki, milli-dini kimlik ölkəmizin davamlı inkişafında və onun dünya birliyində böyük nüfuz qazanmasında əhəmiyyətli rol oynamaqla yanaşı, həm də milli mənlik şüurunun inkişafına ciddi təsir göstərir.

Sözügedən istiqamətdə dövlət səviyyəsində görülən işlərin davamı kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması haqqında imzaladığı fərmanla milli-mənəvi dəyərlərimizə və mütərəqqi tarixi ənənələrimizə verdiyi yüksək qiyməti və dəstəyi bir daha nümayiş etdirdi. Prezidentin bu addımı xalqımızın tarixi yaddaşının, milli-mənəvi dəyərlərinin gələcək nəsillərə ötürülməsinə, gənclərin milli ruhda tərbiyə edilməsinə növbəti töhfəsidir. Fondun təsis edilməsi dini mənsubiyyətindən asılı olmayaraq ölkədə fəaliyyət göstərən konfessiyalara dəstəyi, mənəvi dəyərlərin qorunması və inkişafını, habelə bu sahəyə dövlət qayğısını daha da gücləndirib. Eyni zamanda ölkə başçısının sərəncamı əsasında Azərbaycan İlahiyyat İnstitutunun yaradılması xalqın tarixi ənənələrinə söykənən dini-mənəvi mühitin qorunub saxlanılması, inkişafı və dini fəaliyyətin təşkili sahəsində yüksəkixtisaslı milli kadrların hazırlanması baxımından səmərəli addımlardan biridir. Bu sərəncam Azərbaycanın xarici dini təhsildən asılılığını azaltmaq, yerli ilahiyyatçı kadr ehtiyacını təmin etmək baxımından olduqca əhəmiyyətlidir. Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycan İlahiyyat İnstitutunun yeni binasının açılışında iştirakı ölkəmizdə vətəndaşların dini etiqad, vicdan və təhsil hüquqlarının səmərəli realizəsinin ölkə rəhbərliyinin diqqət mərkəzində olmasının bariz göstəricisi olmaqla yanaşı, bu sahənin milli təhlükəsizliyin vacib elementi kimi nəzərdən keçirildiyini nümayiş etdirir.

Əminliklə deyə bilərik ki, milli birliyin və həmrəyliyin təmin olunması Heydər Əliyevin siyasətində əsas məqsədlərindən biri olub və bu sahədə görülmüş işlərin hazırda uğurla davam etdirilməsi ölkəmizin tərəqqisində mühüm rol oynayır. Ulu Öndərin azərbaycançılıq məfkurəsinə əsaslanan milli ideologiya ilə bağlı siyasi kursunun həyata keçirilməsi vətəndaş həmrəyliyini daha da möhkəmləndirir. Dövlət-xalq birliyi ictimai həyatın bütün sahələrində böyük nailiyyətlərin əldə edilməsinin təməlində dayanır.

Azərbaycançılıq məfkurəsinin və xalqımızın milli-mənəvi dəyərlərinin təbliğində Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyətini xüsusi qeyd etməliyik. Heydər Əliyev kimi tarixi şəxsiyyətin siyasi irsini təbliğ etmək Fondun fəaliyyət istiqamətləri içərisində xüsusi yer tutur. Bu məqsədlə Fond tərəfindən müxtəlif layihələr həyata keçirilir. Bütün bunlar sübut edir ki, Heydər Əliyev irsini təbliğ etmək həm də xalqımızın Ümummilli Liderinə olan rəğbət və ehtiramından bəhrələnməklə ölkəmizin dünya birliyində mövqeyinin möhkəmləndirilməsi və Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması baxımından əhəmiyyətlidir.

**Yeni tarixi şərait**

2020-ci il sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı hərbi təxribatı nəticəsində başlayan müharibədə xalqımız Prezident İlham Əliyevin hərbi sərkərdəlik keyfiyyətlərinin, prinsipial və qətiyyətli mövqeyinin, ən ekstremal şəraitdə belə uğurlu diplomatiya yürütdüyünün şahidi oldu. Azərbaycanın işğal olunmuş əraziləri Vətən müharibəsində cənab İlham Əliyevin Ali Baş Komandanlığı ilə erməni qəsbkarlarından azad edildi. Xalqımızın tarixinin parlaq və unudulmaz səhifələrindən birini təşkil edən bu şanlı qələbənin əsasında Prezident İlham Əliyevin liderlik keyfiyyətləri, Azərbaycanın sosial-iqtisadi, siyasi, mədəni, hərbi sahələrdə uğurları və xarici siyasətdə nailiyyətləri dayanır.

Milli həmrəyliyin və vətəndaş birliyinin möhkəmləndirilməsi istiqamətində aparılan dövlət siyasəti özünün uğurlu nəticəsini Vətən müharibəsi dövründə bir daha sübut etdi. Xalqımız, o cümlədən ölkəmizdə fəaliyyət göstərən dini konfessiyaların nümayəndələri Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin siyasəti ətrafında sıx birləşib, ölkəmizin ərazi bütövlüyünün bərpa olunması yolunda həmrəylik nümayiş etdirdilər. Dini konfessiyalar Ermənistanın Azərbaycana qarşı törətdiyi təxribatlara dəfələrlə kəskin şəkildə etirazlarını bildirmiş, din xadimləri Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi üçün daim dualar edərək ayinlər həyata keçirmişlər.

Vətən müharibəsində möhtəşəm qələbə regionda Azərbaycan üçün əlverişli sosial-iqtisadi və geosiyasi vəziyyət yaratmışdır. Prezident İlham Əliyevin 2022-ci il aprelin 22-də Şuşa şəhərində keçirilmiş Dünya Azərbaycanlılarının V Qurultayındakı çıxışında dediyi kimi: "Qarabağ münaqişəsinin həll edilməsi Prezident kimi mənim üçün başlıca vəzifə idi. Vəzifəyə seçildiyim ilk gündən bu günə qədər bu məsələnin həlli və postmünaqişə dövrünün Azərbaycanın xeyrinə inkişaf etməsi mənim üçün başlıca vəzifədir və bütün güclər səfərbər edilmişdir. Biz hamımız - həm Azərbaycanda yaşayan Azərbaycan vətəndaşları, dünya azərbaycanlıları bir nöqtəyə vururduq, bir hədəfə çatmaq üçün çalışırdıq".

Ölkəmizdə fəaliyyət göstərən siyasi partiyaların əksəriyyəti və vətəndaş cəmiyyəti institutları Vətən müharibəsi dövründə həmrəylik nümayiş etdirərək Prezident İlham Əliyevin siyasətini və "Dəmir yumruq" əməliyyatını fəal şəkildə dəstəklədilər. Bununla da bir daha sübut olundu ki, ölkəmizdə vətəndaş həmrəyliyi sağlam təməllər üzərində qurulub və yeni siyasi konfiqurasiya, ictimai-siyasi mühit onu daha da möhkəmləndirir.

Yuxarıda göstərilənlərin ümumiləşdirilməsi sübut edir ki, Azərbaycanın davamlı inkişafı və dünyada böyük nüfuz qazanması Ümummilli Lider Heydər Əliyevin siyasi kursu ilə sıx şəkildə bağlıdır. Çünki Ulu Öndərin müəyyənləşdirdiyi siyasət özündə siyasi müdrikliyi, illərlə toplanmış böyük dövlətçilik təcrübəsini, qətiyyətli siyasi iradəni və ölkəmizin hərtərəfli inkişafını nəzərdə tutan ideya-siyasi baxışları birləşdirir. Bu siyasət vasitəsilə Azərbaycanın inkişaf strategiyasının hədəfləri müəyyən olunur. Heydər Əliyev yolu ölkəmizin tərəqqisi üçün həmişə aktuallıq kəsb edən siyasi məktəb kimi özünü təsdiq edir.

Ümummilli Liderin siyasətini Prezident İlham Əliyevin uğurla davam etdirməsi və müasir dövrün çağırışlarından irəli gələrək onu yeniliklərlə zənginləşdirməsi Azərbaycanı dünyada güclü və qüdrətli dövlət kimi tanıdır. Vətən müharibəsində möhtəşəm qələbənin qazanılması Heydər Əliyev yolunun Azərbaycanı Milli Qurtuluşdan Zəfərə apardığının parlaq ifadəsidir.

**Mübariz QURBANLI,**
Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri,
Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü
"Azərbaycan" qəzeti, 6 may 2022-ci il

# 12 DİNİ İCMAYA ŞƏHADƏTNAMƏ TƏQDİM EDİLİB

Mayın 31-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) 12 dini icma rəhbərinə qeydiyyatdan keçmək haqqında şəhadətnamələr təqdim olunub.

DQİDK sədrinin birinci müavini Səyyad Salahlı Azərbaycanda hökm sürən nümunəvi dövlət-din münasibətlərindən bəhs edərək, milli-mənəvi dəyərlərimizin qorunması, tolerant və multikultural ənənələrin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərdən danışıb. Bildirib ki, Azərbaycanda dövlət-din münasibətlərinin inkişafında, ölkəmizdə ictimai-siyasi, o cümlədən dini sabitliyin bərqərar olmasında Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətləri olub. Sevindirici haldır ki, bu siyasət möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.



Yeni qeydiyyatdan keçmiş dini icma sədrlərinə şəhadətnamələri təqdim edən Səyyad Salahlı dövlətin din siyasətinin həyata keçirilməsində, milli-mənəvi dəyərlərimizin daha geniş formada ictimaiyyətə çatdırılmasında, vətənpərvərlik prinsiplərinin təbliğində dini icmaların üzərlərinə düşən vəzifələrdən danışıb, onlara ümummilli maraqlardan çıxış etmək tövsiyə olunub.

Qeyd edək ki, Dövlət Komitəsi tərəfindən dini qurumların yenidən dövlət qeydiyyatına alınması prosesi başlayandan indiyədək 992 dini qurum dövlət qeydiyyatına alınıb. Konfessional baxımdan onlardan 955-i İslam, 37-i isə qeyri-islam (xristian – 26; yəhudi – 8; krişna – 1; bəhai – 2) təmayüllüdür.

# DÖVLƏT KOMİTƏSİNDƏ GÖRÜŞLƏR



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı mayın 18-də G20 Dinlərarası Forumun regional hazırlıq iclasında iştirak etmək məqsədilə Azərbaycana səfər edən Sonuncu Gün Müqəddəslərinin İsa Məsihi Kilsəsinin ümumi səlahiyyətlisi Erix Kopişke və "Stirling" Fondunun baş icraçı direktoru Edvard B.Rou ilə görüşüb.

Komitə sədri qonaqlara ölkəmizdəki dövlət-din münasibətləri, dinlərarası harmoniya haqqında məlumat verərək Prezident İlham Əliyevin dini sahəyə daim diqqət və qayğı göstərdiyini, ayrı-ayrı dini icmalara münasibətdə heç bir fərq qoyulmadığını, bu münasibət sayəsində Azərbaycanın zəngin tolerantlıq və multikultural dəyərlərinin qorunduğunu bildirib. Vurğulayıb ki, ölkə ərazisində 37 qeyri-islam təmayüllü dini icma dövlət qeydiyyatından keçirilib, dövlət başçısının müvafiq Sərəncamı ilə ayrılmış vəsait hesabına Azərbaycanda fəaliyyət göstərən bir çox dini icmanın maddi-texniki bazası gücləndirilib.

Söhbət zamanı 44 günlük Vətən müharibəsindəki parlaq qələbəmizə diqqət çəkən DQİDK sədri qeyd edib ki, işğaldan azad edilmiş ərazilərimizdə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu Ermənistan tərəfindən vandalizmə məruz qalmış məscid və məbədlərin, eləcə də saxtalaşdırma və mənimsəməyə məruz qalmış qədim alban xristian irsinin bərpa və konservasiyası istiqamətində işlər görür.

Görüşə və təqdim olunan ətraflı məlumata görə minnətdarlığını ifadə edən Erix Kopişke Azərbaycanda yüksək tolerantlığın, bütün dinlərin nümayəndələrinin dostluq münasibətləri içərisində əmin-amanlıq şəraitində yaşadığının canlı şahidi olduğunu qeyd edib.

Görüşdə tərəflər, həmçinin birgə əməkdaşlıq münasibətlərinin inkişafı perspektivləri, qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

Sonda qonaqlara DQİDK-nın ingilis dilində nəşr etdirdiyi kitablar təqdim edilib.

***

Mayın 19-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı ölkəmizdə səfərdə olan Gürcüstanın din xadimləri ilə görüşüb.

Qonaqları salamlayan Komitə sədri Azərbaycandakı nümunəvi dövlət-din münasibətləri, dinə dövlət qayğısı, vəhdət və həmrəylimizin əhəmiyyəti barədə danışıb. Bildirib ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xalqımızın milli-mənəvi dəyərlərinə qayıdışı sürətlənib, respublikamızda milli özünüdərk hissi güclənib, milli kimlik və düşüncə sistemi ilə bağlı baxışlar formalaşıb.

DQİDK sədri bu istiqamətdə Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətlərini qeyd edib və Prezident İlham Əliyevin milli-mənəvi dəyərlərimizin qorunub-saxlanılması istiqamətində həyata keçirdiyi işlərə toxunub. Həmçinin vurğulayıb ki, dünya miqyasında demokratik dəyər kimi təbliğ olunan tolerantlığa xalqımız təkcə hüquq yox, həm də mənəvi dəyər prizmasından yanaşır.



44 günlük Vətən müharibəsindəki parlaq qələbəmizə diqqət çəkən DQİDK sədri qeyd edib ki, işğaldan azad edilmiş ərazilərimizdə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu Ermənistan tərəfindən vandalizmə məruz qalmış məscid və məbədlərin, eləcə də saxtalaşdırma və mənimsəməyə məruz qalmış qədim alban xristian irsinin bərpa və konservasiyası istiqamətində işlər görür.

Görüşdə dini və mədəni sahədə qarşılıqlı əlaqələrin genişləndirilməsi, təcrübə mübadiləsi, radikal dini qruplaşmalara qarşı mübarizə istiqamətində birgə fəaliyyətlə bağlı fikir mübadiləsi aparılıb.



Mayın 20-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı G20 Dinlərarası Forum Regional Hazırlıq İclası çərçivəsində "Prioritet Qlobal Məsələlər üzrə Multikultural Perspektivlər" adlı beynəlxalq konfransda iştirak etmək üçün Azərbaycanda səfərdə olan nümayəndələrin bir qismi ilə görüşüb.

Görüşdə G20 Dinlərarası Assosiasiyasının vitse-prezidenti Ketrin Marşall, Xarici Əlaqələr və Vəkillik təşkilatının direktoru Martin Kottingam, Beynəlxalq Multikultural Əməkdaşlıq Akademiyasının Prezidenti Audrey E.Kitagava, Saloniki Aristotel Universitetinin İlahiyyat fakültəsinin "Kanon və kilsə hüququ" üzrə dosenti Nikos Mangioros və digər şəxslər iştirak ediblər.

Qonaqlara din sahəsində dövlət siyasətinin əsas istiqamətləri, Dövlət Komitəsinin fəaliyyəti barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, tarixən Azərbaycan cəmiyyətinə xas olan fərqli mədəniyyət, din və dillərə ehtiram kimi humanist münasibətin dövlət tərəfindən inkişaf etdirilməsi istiqamətində həyata keçirilən çoxşaxəli fəaliyyət multikulturalizm fenomenini gerçək mahiyyətinə uyğun şəkildə dünya gündəmində aktuallaşdırıb. Respublikamızda 16 kilsə və 7 sinaqoq fəaliyyət göstərir. Azərbaycanda İslam dini abidələri ilə yanaşı, digər dinlərə aid ibadət ocaqları, Qafqaz Albaniyasının tarixi irsi qorunub saxlanılır, dini qurumlara mütəmadi olaraq dövlət tərəfindən maliyyə yardımı ayrılır. Dinə dövlət qayğısı Prezident İlham Əliyevin siyasətinin mühüm prioritetlərindəndir. Həmçinin vurğulanıb ki, 30 illik işğaldan sonra azad olunan ərazilərdə Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə erməni vandalizminə məruz qalmış tarixi-dini abidələrin, mədəni-dini irsin yenidən dirçəldilməsi, bərpası işlərinə başlanılıb.

Səmimi söhbətə görə təşəkkürünü bildirən qonaqlar ölkəmizi yüksək dəyərlərə sahib olan multikultural cəmiyyət kimi qiymətləndiriblər.

Qonaqlara Dövlət Komitəsi tərəfindən xarici dillərdə nəşr olunmuş kitablar hədiyyə edilib.

# "HEYDƏR ƏLİYEV SİYASƏTİ TOLERANTLIQ" MÖVZUSUNDA KONFRANS KEÇİRİLİB

Mayın 6-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə "Heydər Əliyev siyasəti: tolerantlıq" mövzusunda konfrans keçirilib. Tədbirdə dini icmaların üzvləri arasında eyni mövzuda elan edilən yazı müsabiqəsinin qalibləri də mükafatlandırılıb.



Azərbaycan İlahiyyat İnstitutunda (AİI) keçirilən konfransda DQİDK, İnstitut və Mənəvi Dəyərlərin Təbliği Fondunun (MDTF) rəhbər şəxsləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan DQİDK sədrinin birinci müavini Səyyad Salahlı ölkəmizdə dini sahədə sabitliyə nail olunması, tolerantlıq mühitinin dövlət-din konsepsiyasına uyğun möhkəmləndirilməsi, konfessiyalar arasında dözümlülük mühitinin qorunub saxlanılması istiqamətində Ümummilli Lider Heydər Əliyev tərəfindən həyata keçirilən strategiyanın əhəmiyyətindən bəhs edib. Bildirib ki, Azərbaycan xalqının spesifik keyfiyyəti kimi tolerantlığın dövlət siyasətinin tərkib hissəsinə çevrilməsi, onun möhkəmləndirilməsi, beynəlxalq miqyasda təbliğ edilməsi, eləcə də dünyada nümunə kimi qəbul olunmasında Heydər Əliyevin xidmətləri əvəzsizdir. Bu gün uzaqgörən siyasət Prezident İlham Əliyev tərəfindən çox mükəmməl şəkildə davam etdirilir.

Daha sonra Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə "Heydər Əliyev siyasəti: tolerantlıq" mövzusunda elan edilən yazı müsabiqəsinin önəminə toxunan S.Salahlı müsabiqə iştirakçılarının böyük əksəriyyətinin gənclər olduğunu vurğulayıb. Qeyd edib ki, dini icmalar arasında təşkil olunan müsabiqəyə qatılanlar bugünkü dövlət siyasətinin mahiyyətində tolerantlığın dayanmasını başlıca amil kimi qiymətləndiriblər.

AİI-nun rektoru Aqil Şirinov Heydər Əliyevin Azərbaycan tarixində əvəzsiz rolundan bəhs edib. Ulu Öndərin xidmətlərinin nəticəsi olaraq, sütunları möhkəm bir dövlətin miras qoyulduğunu və Prezident İlham Əliyevin uğurlu siyasətinin nəticəsi olaraq ölkəmizin daha da inkişaf etdiyini vurğulayıb. Din sahəsində Ulu Öndərin xüsusi xidmətlərini diqqətə çatdıran rektor bu gün dini sahədə sabitliyin olmasını məhz Ümummilli Liderin xidmətləri ilə əlaqələndirib.

MDTF-in icraçı direktoru Mehman İsmayılov öz növbəsində Azərbaycanda milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına dövlət səviyyəsində göstərilən qayğıdan bəhs edib. Ulu Öndərin ölkəmizdə multikulturalizmin siyasi əsaslarının banisi, dinlərarası harmoniyanı ən yüksək səviyyəyə çatdıran tarixi şəxsiyyət olduğunu qeyd edən M.İsmayılov yazı müsabiqəsinə diqqət çəkərək, təqdim edilən məqalələrdə Azərbaycan xalqının spesifik xüsusiyyəti olan tolerantlığa bir daha işıq salındığını deyib.

Konfransın sonunda yazı müsabiqəsinin qalibləri elan edilib, onlara mükafatlar təqdim olunub. Müsabiqənin qalibi Lənkəran şəhəri Böyük Bazar "Cümə" məscidi dini icmasının üzvü, imam müavini Atif Arif oğlu Ağayev pul mükafatını qazilərə yardım üçün ianə edəcəyini bildirib.

# I TÜRK DÜNYASI ƏDƏBİYYAT VƏ KİTAB FESTİVALI BAŞA ÇATIB

I Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı başa çatıb. Üç gün davam edən festivalda türk dövlətlərini təmsil edən ölkələr öz nəşrlərini Bakı Dövlət Universitetinin həyətində kitabsevərlərə təqdim ediblər.

Festivalın bağlanış və mükafatlandırma mərasimində Beynəlxalq Türk Akademiyasının vitse-prezidenti Fizuli Məcidli, Azərbaycan Yazıçılar Birliyinin sədri Anar Rzayev, Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev, TÜRKSOY-un baş katibinin müavini Bilal Çakçı, İLESAM-ın rəhbəri Məhmət Nuru Barmaksız, Azərbaycan Milli Məclisinin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva və yazıçılar, deputatlar, ictimai xadimlər iştirak ediblər.

Festival çərçivəsində Beynəlxalq Türk Akademiyası, Beynəlxalq Türk Müəllifləri Birliyi (BEYTÜM) TÜRKSOY və İLESAM elm, ədəbiyyat sahəsində uğur qazanan ziyalıları, tədqiqatçıları və alimləri bir neçə nominasiya üzrə mükafatlandırıb.

"Türk Dünyası Kitab" mükafatına Milli Məclisin deputatı Cavanşir Feyziyev "Türk dünyası" 5 cildlik kitabına görə layiq görülüb.



Beynəlxalq Türk Akademiyasının Əlişir Nəvai "Qızıl medal"ı deputat Qənirə Paşayevaya, gümüş medalları AMEA-nın Ədəbiyyat İnstitutunun professoru Almaz Ülvi Binnətovaya, BDU-nun professoru Firuzə Ağayevaya, tədqiqatçı jurnalist Aida Eyvazovaya, şair Əkbər Qoşalıya, AMEA-nın əməkdaşı Ağahüseyn Şükürova təqdim edilib.

TÜRKSOY və İLESAM-ın ədəbiyyat və elm sahəsində mükafatlandırdığı alimlər, yazıçılar, ədəbiyyat və söz adamları arasında Azərbaycan Milli Məclisinin deputatı Qənirə Paşayeva, Xalq yazıçısı Kamal Abdulla, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini, yazıçı Səyyad Aran, şair Firuzə Məmmədli, Özbəkistanın M.Uluğbek adına Milli Universitetinin professoru Nigina Şermuradova, Qazaxıstanın Lev Qumilyov adına Avrasiya Milli Universitetinin professoru Amantay Şərif, Qırğızıstan Dövlət Universitetinin professoru Umut Kultayeva, Azərbaycan Yazıçılar İttifaqının katibi Elçin Hüsenbəyli, AYB-nin sədr müavini Rəşad Məcid, AYB-nin mətbuat katibi Xəyal Rza, şair Elxan Zal, gənc yazıçı Fərid Hüseyn, araşdırmaçı alim və şairlər Cavanşir Yusifli, Seyfəddin Hüseynli, araşdırmaçı jurnalist Aida Eyvazova və digər tanınmış imzalar olub.

# ƏSL YAZIÇI ƏXLAQININ BARİZ ÖRNƏYİ

## *İMİŞLİDƏ GÖRKƏMLİ YAZIÇI SƏYYAD ARANIN 70 İLLİYİ QEYD EDİLİB*






Mayın 21-də İmişli rayonundakı V.Xudiyev adına Mədəniyyət sarayında görkəmli yazıçı Səyyad Aranın 70 illik yubileyi təntənəli şəkildə qeyd olunub. Yeni Azərbaycan Partiyası İmişli rayon təşkilatının və İmişli rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən tədbiri bədii qiraət ustası Sənəm Məmmədova açaraq yubilyarın çoxşaxəli fəaliyyəti və yaradıcılığı barədə ətraflı məlumat verib. Bildirib ki, Səyyad Aran 1952-ci ildə İmişli rayonunda anadan olub. Tanınmış ictimai-siyasi xadim, filologiya üzrə fəlsəfə doktorudur. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan Yeni Azərbaycan Partiyasının qurucularından idi. Milli Məclisin birinci və ikinci çağırış deputatı olub. Azərbaycan Respublikasının birinci dərəcəli fövqəladə və səlahiyyətli elçisidir. Hazırda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini vəzifəsində çalışır. Yazıçılar Birliyinin nəsr seksiyasının rəhbəridir. O, ABŞ-ın Texas ştatının fəxri vətəndaşı, Əməkdar jurnalistdir. Dövlət qulluğunda səmərəli fəaliyyətinə görə ölkə başçısı tərəfindən "Tərəqqi" medalı və "Şöhrət" ordeni ilə təltif edilib.

Tədbirin aparıcısı - Azərbaycan Yazıçılar Birliyinin (AYB) sədr müavini, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid S.Aranı hər zaman yaradıcılıq axtarışında olan görkəmli yazıçı kimi səciyyələndirib. Bildirib ki, o, ədəbi arenada özünəməxsus yeri olan sənətkardır. Özünə və sözünə, dövlətçiliyə sədaqəti ilə həmişə seçilib. S.Aran yazıçı və tədqiqatçı alim, ictimai-siyasi xadim kimi Azərbaycanın həyatında çox mühüm yer tutur. O, məşğul olduğu bütün sahələrdə zəngin şəxsiyyətdir.

Xalq yazıçısı, AYB-nin sədri Anar tədbirdə çıxış edərək deyib: "Səyyad Aran ömrü boyu hansı vəzifəni tutmasından asılı olmayaraq özünü təvazökar, sadə, nəcib və məsuliyyətli aparıb. Onun yazıçı istedadını ilk dəfə çox illər öncə oxuduğum "Soyuq günəş" kitabında duydum. Eləcə də "Təmizlik kağızı" povestini oxuyarkən... Stalin dövrünün repressiyaları faciələrindən bəhs edən əsərlərin çoxunda, adətən, ziyalıların başına gələn bəlalardan söz açılır. Səyyadın əsərində isə eyni həyatı yaşamış sadə kənd insanlarının taleyindən bəhs olunur. "Təmizlik kağızı"ndan aldığım ümumi təəssürat hələ də yaddaşımdan silinməyib. Repressiyaların yalnız ziyalıları yox, yalnız ayrı-ayrı insanları yox, ümumiyyətlə, insanların mənəvi varlıqlarını şikəst etməsi, xof və qorxu nəticəsində bir-birindən danos verməsi, bir-birindən şübhələnməsi halları "Təmizlik kağızı"nda dolğun təcəssümünü tapıb. Səyyadın "İrəvana gedən yollar" əsərinin içində isə üç müxtəlif janrda yazılmış üç əsər var. O bu mövzuda yazdığı əsərləri ilə özünü həm də peşəkar hərbi yazar kimi tanıdıb. Səyyad haqqında "İstedadlı yazıçı" təbirinə "Abırlı insan" sözlərini əlavə edirəm və bu onunla bağlıdır ki, o, ədəbi aləmdə heç kəsin uğurunu qısqanmır, hər kəsin yerini bilir. Həm özündən əvvəl gələnləri, həm öz nəsildaşlarını, həm də daha gənc nəslin qabiliyyətli nümayəndələrini obyektiv qiymətləndirir. Onun "altmışıncılar" haqqında xoş sözləri, onlara nəcib münasibəti əsl yazıçı əxlaqının bariz örnəyidir. Ona yeni-yeni uğurlar diləyirəm".

AMEA-nın vitse-prezidenti, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli də çıxışında Səyyad Aranın aydın, sədaqətli mövqeyə malik ictimai-siyasi xadim və yazıçı olmasından söz açıb. Bildirib ki, onunla eyni vaxtda ali təhsil alıb. Eyni elmi konfranslarda iştirak ediblər. Bütün bu illər ərzində S.Aranı həmişə sözə həssas, elmi-nəzəri biliklərə dərindən bələd olan, fəal ictimaiyyətçi kimi tanıyıb. Öz fəaliyyətində çoxşaxəli sahələri bir araya gətirə bilən insanlara çox nadir hallarda rast gəlinir. Bu mənada Səyyad Aran zəngin təcrübəyə malik, hərtərəfli bilik və zövq sahibidir.

Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli, AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlu, AYB-nin katibi Səlim Babullaoğlu, professor Vüsal Qasımlı, Yeni Azərbaycan Partiyası İmişli rayon təşkilatının sədri Səfa Ağayev, "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turan, şair Qəşəm Nəcəfzadə, AYB Aran bölməsinin sədri Sərvaz Hüseynoğlu, yazıçı Əlisahib Ağayev və başqaları da yazıçının yaradıcılığı məziyyətlərindən ətraflı şəkildə bəhs ediblər. Bildirilib ki, Səyyad Aran ədəbiyyat aləmində öz yeri, sözü və mövqeyi olan yazıçıdır. O, əsərlərində Azərbaycan insanının ən müxtəlif sosial-psixoloji situasiyalarda özünə sadiqliyini, dirəniş gücünü səmimiyyətlə qələmə alır.

Vurğulanıb ki, S.Aran həm də doğulub boya-başa çatdığı Aran bölgəsinin ədəbi həyatının formalaşmasında xüsusi yeri olan sənətkardır.

Tədbirdə yazıçının yaradıcılığı əsasında hazırlanmış ədəbi-bədii kompozisiya təqdim olunub, slayd izlənib.

Sonda Səyyad Aran 70 illik yubileyi ilə bağlı tədbirin keçirilməsinə şərait yaradıldığı üçün İmişli rayon İcra Hakimiyyətinin başçısı Elçin Rzayevə, ədəbi fəaliyyətinin inkişafında xüsusi yeri olan Xalq yazıçısı Anara, tədbir iştirakçılarına təşəkkürünü bildirib, yaradıcılıq yolundan söz açıb: "Bütün nailiyyətlərim üçün ilk növbədə Ulu Öndər Heydər Əliyevə borcluyam".

**Sərvaz Hüseynoğlu**
"525-ci qəzet"

# ÇAĞDAŞ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ BANİSİ

*Azərbaycan dövlətinin milli ideologiyasının təməlini, əsasını təşkil edən azərbaycançılıqdır. Dövlətçilik, milli-mənəvi dəyərlər – bunlar hamısı azərbaycançılıq anlayışının tərkib hissəsidir.*

***Heydər ƏLİYEV***
*Ümummilli Lider*

Müstəqilliyimizin ilk illərində, xaosun, hakimiyyətsizliyin, hərc-mərcliyin baş alıb getdiyi, problemlərin durmadan artdığı zamanda azərbaycançılığın ümummilli ideya halına gəlməsinə, eləcə də bütün dünya azərbaycanlılarını, ölkəmizdə yaşayan bütün dinlərin və xalqların nümayəndələrini birləşdirən məfkurəyə ciddi ehtiyac yaranmışdı. Bir sözlə, ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan, bəlkə də, tarixinin ən dərin sosial-iqtisadi və mənəvi böhranını yaşayırdı. Bəzi məkrli xarici qüvvələr tərəfindən məqsədli və sistemli şəkildə əhalinin qeyri-sağlam təbəqələri hədəfə alınaraq, onlar arasında ciddi antimilli və antidövlət meyillərin formalaşdırılmasına cəhdlər artmışdı, müstəqil dövlətin əsaslarına, vətəndaş həmrəyliyi və birliyinə təhlükə yaranmışdı. Yetmiş illik əsarətdən yeni qurtulmuş ölkəmizdə yaranmış ağır vəziyyət, o cümlədən əhalinin dini biliklərinin az olması bəzi dairələri Azərbaycanda dini radikalizmin özəyinin formalaşdırılmasına sövq edirdi. Eləcə də, dini inancdan öz geosiyasi maraqlarını həyata keçirmək vasitəsi kimi yararlanmağa çalışan güclərin təsiri və dəstəyi qeyri-ənənəvi dini cərəyanların ölkəmizə ayaq açmasına zəmin yaratmışdı.

Təəssüf ki, bu dövrdə ölkəmizə Vətəninin, xalqının gələcəyini, dövlət maraqlarını deyil, özlərinin şəxsi mənafeyini düşünən, imkanlarından qat-qat böyük ambisiyalarla yaşayan, heç bir idarəçilik qabiliyyəti, təcrübəsi olmayan şəxslərin rəhbərlik etməsi dövlətçiliyimizi uçurumun kənarına gətirib çıxarmışdı. Ölkədə xaosun, anarxiyanın, özbaşınalıqların, iqtisadi və sosial böhranın baş alıb getməsi, ərazilərimizin bir-birinin ardınca ermənilər tərəfindən işğalı, Azərbaycanın müstəqilliyini itirmək təhlükəsini yaşaması, vətəndaş qarşıdurmasının pik həddə çatması nəticəsində xalq sabaha ümidini tamamilə itirmişdi.

Bu yeni tarixi şəraitdə ölkəni qarşılaşdığı böhranlardan çıxarmaq, xalqın özünəinamını geri qaytarmaq üçün milli dərkə və ideologiyaya ehtiyac duyulurdu. Bu konsepsiya həm milli-dini adət-ənənələrimizə əsaslanmalı, həm də ölkənin çağdaş dünyaya inteqrasiyasını təmin etməli idi. Ümumiyyətlə, burada əsas missiya dünyada gedən demokratiya, inkişaf və qloballaşma prosesindən geri qalmamaq, o cümlədən milli-mənəvi dəyərlərimizi qoruyub saxlamaqla yanaşı, tolerant və multikultural dəyərləri yaşatmaq idi. Öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində bu missiyanın öhdəsindən uğurla gələn fenomenal şəxsiyyət Heydər Əliyev dövlətin azərbaycançılıq ideologiyasının əsasında gələcəyə gedən yolunu məharətlə müəyyən etdi.

**Milli təhlükəsizliyin əsas ideoloji təminatçısı**

Ulu Öndər Heydər Əliyevin yaratdığı milli ideologiya – azərbaycançılıq məfkurəsi, ölkədə və beynəlxalq aləmdə yeritdiyi sülhsevər siyasət ölkəmizin milli təhlükəsizliyinin, həmçinin ideoloji təhlükəsizliyinin əsasını təşkil etmişdir. Milli təhlükəsizliyin əsas mahiyyəti təkcə ölkə ərazisinin və əhalisinin müdafiə olunması deyil, həm də ideoloji təhlükəsizliyinin təmin edilməsidir. Azərbaycançılıq bir ideoloji sütun kimi ölkəmizin milli təhlükəsizliyini təmin etmək potensialına malikdir. Yeri gəlmişkən, milli mənafelərimizin başlıca tərkib hissəsi olan qüdrətli və güclü Azərbaycan ideyası milli təhlükəsizlik strategiyasının əsas hədəflərindən biridir. Azərbaycançılıq ideologiyası istər Azərbaycanın daxili siyasi həyatına, istərsə də onun beynəlxalq siyasi imicinə dəstək olan əsas ideoloji sütun kimi götürülə bilər. Bu ideologiya bir tərəfdən ölkədəki inkişafın, sabitliyin, digər tərəfdən də onun geosiyasi və geostrateji mənafelərinin prioritetini təşkil edir. Azərbaycan vətəndaşı olaraq milli mənafeyimiz həm siyasi-iqtisadi və hüquqi azadlıqlarımızın qorunmasını, bütün ölkə əhalisinin bərabərliyini və rifahını nəzərdə tutur, həm də sabit cəmiyyətin mənəvi dəyərlərindən doğan ehtiyac kimi, bütün bu dəyərlərin qoruyucusu olan dövlətimizin mənafeyini formalaşdırır. Azərbaycançılıq milli mənafeyimizə uyğun gəlməyən, milli təhlükəsizliyimizə təhlükə yaradan təxribatlara sipər olan bir ideologiya kimi, mənəvi dəyərlərimizdən, mentalitetimizdən, uğurlu xarici siyasətimizdən bəhrələnir.



**Tolerantlıq və multikulturalizm**

Heydər Əliyev müasir azərbaycançılıq ideologiyasının – dövrün, zamanın tələblərini, dövlətçiliyin əsaslarını, milli-etnik şəraiti nəzərə alan milli təlimin banisidir. Məhz azərbaycançılıq ideologiyası Ulu Öndərin dövründə həqiqi siyasi-ideoloji məzmun alaraq mükəmməl bir təlimə çevrildi və müstəqil dövlət ideologiyası səviyyəsinə qaldırıldı. Milli olduğu qədər də bəşəri, universal səciyyə daşıyan azərbaycançılıq ideologiyasında tolerantlıq amilini xüsusi vurğulamaq lazımdır. Azərbaycançılıq dilindən, millətindən, irqindən, sosial mənsubiyyətindən asılı olmayaraq, bütün ölkə vətəndaşlarını ümumi Vətən naminə həmrəyliyə dəvət edir. Milli-dini mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaşın bu torpaq üçün milli yiyəlik hissini yaşaması tolerantlığın bariz təzahürüdür. Əslində, dini və etnik tolerantlıq Azərbaycan xalqının qanında, canında, kökündə var. Milli ənənələrimizdə, mentalitetimizdə, habelə sosial, mənəvi və dini düşüncə laylarımızı özündə yaşadan folklorumuzda başqa dinlərə, millətlərə dözümlü münasibət də yaşadılır.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı və tarix qarşısında ən böyük xidmətlərindən biri də xalqımızın xarakterik keyfiyyəti olan tolerantlığın daha da inkişaf etdirilməsi üçün hüquqi bazanın yaradılması, bu sahənin dövlətin nəzarəti və qayğısı altına keçirilməsidir. Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində Azərbaycanda dövlət-din münasibətlərində həssas nəzarətlə bərabər, ölkədə etiqad azadlığı üçün şərait yaradıldı, dini dəyərlərə, ibadət yerlərinə xüsusi qayğı göstərilməyə başlanıldı, dövlətlə din arasında qarşılıqlı anlaşma və əməkdaşlıq gücləndi. Ümummilli Liderin xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycan nəinki vətəndaş müharibəsindən qurtardı, eyni zamanda, ölkəmizdə mövcud olan bütün milli azlıqlar vahid azərbaycançılıq ideologiyası ətrafında birləşdi.

Azərbaycanın müstəqillik yolunda kövrək addımlarla irəlilədiyi ilk illərdə Ümummilli Lider Heydər Əliyevin ölkənin vahidliyini və bütövlüyünü təmin etməyin ən uğurlu modeli kimi azərbaycançılığı dövlət siyasəti halına gətirməsi, həmçinin XXI əsrin astanasında beynəlxalq miqyasda iqtisadi-siyasi sferada dayanıqlılığı və etibarlı tərəfdaş imici ilə qəbul edilən ölkəmizdə multikulturalizmin dövlət siyasətinin prioritetlərindən birinə çevrilməsi Azərbaycan dövlətçilik tarixində imza atılan, dönüş xarakterli uğurlardan sayılır. Çünki azərbaycançılığın inkişafı multikultural mühitdən kənarda reallaşa bilməzdi. Eyni zamanda, Azərbaycanda multikultural mühitin təşəkkül tapmasında azərbaycançılıq ideologiyasının yeri və rolu danılmazdır. Bununla da birmənalı olaraq deyə bilərik ki, Ulu Öndər Heydər Əliyev azərbaycançılıq ideologiyası ilə müasir Azərbaycan multikulturalizminin də əsasını qoymuşdur. Ümummilli Lider ölkədə mövcud olan xaos və özbaşınalığa son qoymuş, ölkəmizi vətəndaş qarşıdurması kimi böyük bəlalardan xilas etmişdir. Belə bir dövrdə Azərbaycanda yaşayan bütün xalqların və dinlərin nümayəndələrinin ortaq dəyərlər ətrafında birləşməsinə ehtiyac var idi.

Ulu Öndər azərbaycançılıq məfkurəsinin prinsiplərini bəyan etməklə ölkəmizin inkişafı və tərəqqisi üçün işıqlı yolun təməlini qoymuşdur. Heydər Əliyev öz çıxışlarının birində deyirdi: **"Azərbaycanda qədim dövrlərdən müxtəlif xalqların nümayəndələri yaşamış, bir çox xalqların dinləri mövcud olmuşdur. Azərbaycan və onun xalqı həmişə dini dözümlülüyü ilə fərqlənmişdir. Azərbaycandaheç vaxt dini zəmində heç bir münaqişə, heç bir toqquşma olmamışdır. Hətta ötən əsrin 80-ci illərinin axırı və 90-cı illərinin əvvəllərindəki ağır dövrdə belə heç bir mənfi fakt qeydə alınmamışdır. Bu gün də müstəqil Azərbaycanda biz hər bir insanın azadlığı üçün, o cümlədən dini mənsubiyyət azadlığı, vicdan azadlığı üçün hər cür şərait yaratmışıq. Hər kəs hansı dinə mənsubdursa, həmin dinə etiqad edir. Lakin bu, Azərbaycanda insanların mehriban, qarşılıqlı anlaşma şəraitində yaşamasına mane olmur, burada milli və dini mənsubiyyətlə əlaqədar heç bir ayrı-seçkilik yoxdur".** Məhz bu fikirlər dahi şəxsiyyətin uzaqgörən siyasətinin mahiyyətini dərk etməyə kifayətdir.

Ulu Öndər azərbaycançılıq ideologiyası ilə dilindən, dinindən, millətindən, irqindən, sosial mənsubiyyətindən asılı olmayaraq, bütün ölkə vətəndaşlarını ümumi vətən naminə həmrəyliyə dəvət etdi. Təbii ki, onun milli-mənəvi sahədə həyata keçirdiyi mütərəqqi islahatlar bununla məhdudlaşmır. Milli-mənəvi, xüsusilə dini dəyərlər sisteminin sağlam müstəvidə inkişaf etdirilməsi və qorunması üçün güclü siyasi iradə, habelə dövlətçilik təcrübəsi tələb olunurdu. Heydər Əliyev bu xüsusiyyətləri özündə ehtiva edən tarixi şəxsiyyət kimi həmin işin öhdəsindən də məharətlə gəldi. Dini təhlükəsizliyin təmin edilməsi üçün hüquqi-inzibati sferada lazımi addımlar atılmaqla yanaşı, məzhəbçilik, dini-nifrət və ayrı-seçkiliyin ölkəmizə ayaq açmasının da qarşısı qətiyyətlə alındı. O dövrdə Azərbaycanın düşdüyü çətin vəziyyətdən çıxmasını istəməyən daxili və xarici qüvvələr Heydər Əliyevə hər vəchlə mane olmağa çalışsalar da, xalqın Ulu Öndərə verdiyi böyük dəstək nəticəsində bu çirkin təxribatların sonu uğursuzluqla bitdi. Azərbaycanın ən böyük ziyalısı Ulu Öndər çox çətin bir vaxtda məsuliyyəti öz üzərinə götürüb xalqımızın dəyərlər sistemini məhvolma təhlükəsindən xilas etdi.

davamı səh. 9

# ÇAĞDAŞ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ BANİSİ

əvvəli səh. 8

**Dünənin, bugünün və sabahın məfkurəsi**

Dövlətin uzun illər dini icmalarla multikulturalizm və tolerantlıq prinsipləri əsasında həyata keçirdiyi düşünülmüş siyasət nəticəsində bu gün ölkəmizdə dini həmrəylik ən yüksək səviyyədə təzahür edir. Azərbaycan dinlərin və mədəniyyətlərin qovuşduğu tarixi məkan kimi bəşəri dəyərlərin zənginləşdirilməsi, beynəlxalq və regional sülhün bərqərar olması üzrə olduqca əhəmiyyət kəsb edən özünəməxsus multikulturalizm, tolerantlıq və dövlət-din münasibətləri nümunəsi formalaşdıran ölkə kimi tanınmaqdadır.

Əsrlərdir tolerantlıq və multikulturalizm xalqımızın ictimai-siyasi həyatının mühüm, həm də ayrılmaz dəyərinə çevrilib. İndi isə bu dəyərlər müstəqilliyimizin milli sərvəti kimi çıxış edir. Xalqın əsrlərlə yol gələn mənəvi dəyərlər sistemi dövlətin dəstəyi sayəsində daha güclü və daha təsirli xarakter alıb. İslamofobiyanın geniş yayıldığı bir dövrdə Azərbaycan dünyanı vəhdət namazları ilə heyrətləndirməyi bacarmışdır.

Fərəhli haldır ki, bu gün ölkədə mütərəqqi dövlətçilik ənənələri, formalaşdırılan bünövrə yeni uğurlarla daha da möhkəmləndirilir. Qlobal inkişaf proseslərinin önəmli üzvünə çevrilən Azərbaycanın yüksəlişi davamlı xarakter daşıyır. Bəşəriyyətin xoşbəxt gələcəyinə hesablanmış qlobal təşəbbüsləri, çağırışları ilə sivilizasiya və dinlərarası dialoq mərkəzinə çevrilib. Azərbaycanda tolerantlıq, multikulturalizm, dinlər və mədəniyyətlərarası dialoq sahəsində müxtəlif tərəflərin bir araya gəlməsi istiqamətində kifayət qədər tədbirlər həyata keçirilir. Azərbaycan son illərdə bu sahədə onlarca beynəlxalq və regional konfrans, forum və simpoziumlara ev sahibliyi edib.

Müstəqilliyimizi bərpa etdikdən sonra ölkəmizdəki dini dözümlülük, multikultural dəyərlər Ümummilli Liderimiz Heydər Əliyevin alternativsiz siyasi xəttini uğurla və uzaqgörənliklə həyata keçirən Azərbaycan Prezidenti İlham Əliyevin 2008-ci ildə mədəniyyətlərarası və dinlərarası dialoqun inkişafı məqsədilə əsasını qoyduğu "Bakı prosesi", eləcə də digər dünya miqyaslı təşəbbüslərlə möhkəmləndi. Dövlətimizin ümumbəşəri ideyaların carçısı olması bizim üçün qürur mənbəyi, Azərbaycanın beynəlxalq nüfuzu üçün yenilməz zəfərə çevrildi.

44 günlük Vətən müharibəsi müddətində siyasi əqidəsindən, statusundan, vəzifəsindən, milli mənsubiyyətindən və dünyanın harasında yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı milli həmrəylik nümayiş etdirdi.

Vətən müharibəsində işğalçını həm də xalqımızın bu həmrəyliyi, birliyi vəlvələyə salmışdı. Siyasət və döyüş meydanında məğlubiyyətə düçar olan ermənilər bu vəhdəti, birliyi zəifləmtməyə, millətlər arasında nifaq, təfriqə salmağa çalışsalar da, ölkəmizdəki birgəyaşayış modelinin sınaqlardan uğurla çıxdığını, böyük gücə çevrildiyini, Azərbaycanda tarixən yaşayan xalqların, dinlərin nümayəndələrinin hamısının azərbaycançılığa, Azərbaycan dövlətçiliyinə sıx bağlılığını və bu bağların illər keçdikcə daha da möhkəmləndiyini unutmuşdular.

Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunması həm də milli həmrəyliyimizin və bütün azərbaycanlıların Prezident İlham Əliyevin ətrafında birliyinin təntənəsi oldu. Bütövlükdə, 44 günlük savaşdakı Zəfərlə xalqımız Ali Baş Komandanımızın rəhbərliyi ilə milli həmrəyliyin ən mükəmməl nümunəsini göstərdi.

Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, Vətən müharibəsində Azərbaycanda yaşayan bütün xalqların böyük payı vardır. Vətən müharibəsi bir daha onu göstərdi ki, Azərbaycanda bütün xalqlar dostluq, qardaşlıq, həmrəylik şəraitində yaşayır. Bu 44 günlük müharibə bir daha göstərdi ki, ölkəmizdə milli birlik, milli həmrəylik vardır.

Bununla da Ümummilli Liderimizin azərbaycançılıq ideyası özünün yenilməz gücünü Vətən müharibəsində bir daha nümayiş etdirdi. Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, Azərbaycanın bütün uğurlarının, parlaq qələbəsinin təməlində XX əsr tariximizin parlaq siması, böyük şəxsiyyəti, zamanəni qabaqlayan Heydər Əliyevin siyasəti və azərbaycançılıq ideologiyası dayanır.

**Səyavuş HEYDƏROV,**
Azərbaycan Respublikası Dini Qurumlarla
İş üzrə Dövlət Komitəsi sədrinin müavini
"Xalq qəzeti"

# AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİ TATARISTANDA SƏFƏRDƏ OLUB

İdil Bulqar dövlətinin İslam dinini qəbul etməsinin 1100 illiyi münasibətilə 19-21 may 2022-ci il tarixlərində Rusiya Federasiyasının Tatarıstan Respublikasında bir sıra tədbirlər keçirilib.

Tatarıstan tərəfinin dəvəti əsasında bayram tədbirlərində Azərbaycandan da nümayəndə heyəti iştirak edib.

Azərbaycan Respublikasından Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) sədrinin müavini Səyavuş Heydərov və Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev Tatarıstanın paytaxtı Kazan şəhərində keçirilən forum və sammitdə iştirak ediblər. Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov isə "Rusiya müsəlmanlarının ruhani irsi" adlı IV Beynəlxalq Bolqar Forumu çərçivəsində baş tutan "Müasir dövrdə İslam təhsili: çağırışlar, meyillər və imkanlar" mövzusunda məruzə ilə çıxış edib.

Rusiya Federasiyasının regionları ilə İslam dünyası ölkələri arasında iqtisadi, ticarət, sosial-mədəni əlaqələrin inkişaf etdirilməsi məqsədi daşıyan sammitdə 65 ölkə və Rusiya Federasiyasının 55 regionundan nümayəndələr qatılıb.

Sammit iştirakçıları, həmçinin Rusiya Federasiyası Dövlət Dumasında Volqa Bulqar dövlətinin İslamı rəsmi qəbul etməsinin 1100 illiyinə həsr olunmuş sərgidə də iştirak ediblər. Sərgidə Volqa boyu İslam dininin inkişaf dövrləri, qədim əlyazma və risalələr, İslam təhsili, dövlət qulluğunda olan müsəlmanlar, Rusiyada İslamın hazırkı durumu haqqında sənədlər, dini tikililərin memarlıq rəsmləri təqdim olunub.



# ŞƏBNƏM QIZLAR İSLAM KOLLECİNDƏ "XXI ƏSRDƏN BAXIŞ: İSLAM VƏ QADIN" MÖVZUSUNDA SEMİNAR KEÇİRİLİB

Mayın 20-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) birgə təşkilatçılığı ilə Şəbnəm qızlar İslam Kollecində "XXI əsrdən baxış: İslam və qadın" mövzusunda seminar keçirilib.

Seminarda DQİDK-nın Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova, QMİ sədrinin müavini Qəmərxanım Cavadlı, kollecin müəllim və tələbələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Qəmərxanım Cavadlı mövzunun vacibliyindən danışaraq, İslamın qadına qazandırdığı hüquq və azadlıqlar, İslamda qadınların təhsilli olmasının əhəmiyyəti kimi məqamlara toxunub. Bu məqsədlə cəmiyyətdə dini maarifləndirmənin, xüsusilə İslamda ailə ənənələri, qadının mövqeyi, ona verilən dəyər mövzusunda təbliğatın aparılmasından bəhs edib.



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova çıxışında dini maarifçilik işinin həyata keçirilməsi, xurafatla mübarizə, eləcə də cəmiyyətimizi narahat edən digər məsələlərin aradan qaldırılmasında qadınların fəal iştirakı və rolunun əhəmiyyətindən danışıb. Qadınların həyatda layiqli mövqe tutmasında onların təhsilinin əvəzolunmazlığını vurğulayan şöbə müdiri cəmiyyətin inkişaf prosesində tam iştirak etmək üçün lazım olan bilik, bacarıq və özünə inamı gücləndirməyin ən əhəmiyyətli yolunun təhsil olduğunu bildirib.

Eyni zamanda şöbə müdiri İslam dininin qadının təhsilinə və müxtəlif sahələrdə özünü inkişaf etdirməsinə nə qədər əhəmiyyət verdiyini qeyd edərək, çıxışını "bir qızın təhsili gələcəyə, dünyamızın gələcəyinə - inkişaf edən, dinc və davamlı bir dünyaya qoyulan sərmayədir" fikri ilə yekunlaşdırıb.

Sonda mövzu ətrafında müzakirələr aparılıb, tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# DİN XADİMLƏRİNİN ATTESTASİYADAN KEÇİRİLMƏSİ ÜÇÜN ATTESTASİYA KOMİSSİYASI YARADILIB



Mayın 24-də Dini Qurumlara İş üzrə Dövlət Komitəsində (DQİDK) "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununun müzakirəsi keçirilib.

Tədbirdə çıxış edən DQİDK-nın sədr müavini Gündüz İsmayılov "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu barədə fikirlərini bölüşüb.

Bildirib ki, Qanunla din xadimlərinin vəzifələri müəyyənləşdirilib. İmam, imam müavini, dini ayinlərin icraçısı (müəzzin) vəzifələri müəyyən olunub. Bunlar əsasən böyük məscidlər üçün nəzərdə tutulub. Xaricdə dini təhsil almış şəxslər İslam dininə aid ibadət yerlərində (məscidlər) vakant vəzifələrin tutulması müsabiqəsində iştirak edə biləcəklər. İanələrin elektron qaydada qəbul edilməsi ilə bağlı qaydalar isə hazırda hazırlanmaqdadır.

G.İsmayılov Azərbaycanda İslam dininə aid ibadət yerlərində (məscidlər) din xadimi kimi işləmək istəyənlər üçün tələblər barədə də danışıb. Bildirib ki, din xadimi olmaq istəyənlər narkoloji dispanserdən arayış təqdim etməlidirlər. Həmçinin qeyd edib ki, ölkəmizdə İslam dininə aid ibadət yerlərində və ziyarətgahlarda din xadimi kimi fəaliyyət göstərmək üçün dini ali və orta ixtisas təhsili olan şəxslər müraciət edə bilərlər. Sədr müavini Azərbaycanda məscidlərdə vakant yerlər haqqında da məlumat verib.

O, həmçinin vurğulayıb ki, ibadət yerlərində və ziyarətgahlarda fəaliyyət göstərən din xadimlərinin attestasiyadan keçirilməsi ilə bağlı Attestasiya Komissiyası yaradılıb.

# İSLAM DİNİNƏ AİD İBADƏT YERLƏRİNDƏ (MƏSCİDLƏR) VAKANT VƏZİFƏLƏRİN TUTULMASI ÜÇÜN MÜSAHİBƏ ELAN EDİLİB

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi İslam dininə aid ibadət yerlərində (məscidlər) aşağıdakı vakant vəzifələrin tutulması üçün müsahibə elan edir:

1. Suraxanı rayonu, "Fatimeyi-Zəhra" məscidi - imam vəzifəsi
2. Suraxanı rayonu, Bülbülə qəsəbə məscidi - imam müavini vəzifəsi
3. Səbail rayonu, "Həzrət Məhəmməd" məscidi - imam vəzifəsi
4. Yasamal rayonu, "İlahiyyat" məscidi - imam vəzifəsi
5. Şirvan şəhəri, "Cümə" məscidi - imam vəzifəsi
6. Şirvan şəhəri, "İmam Zeynalabdin" məscidi - imam vəzifəsi
7. Şirvan şəhəri, "Həzrət Əbülfəz" məscidi - imam vəzifəsi
8. Abşeron rayonu, Mehdiabad qəsəbə məscidi – imam vəzifəsi
9. Xırdalan şəhəri, "Cümə" məscidi - imam vəzifəsi
10. Zaqatala rayonu, Çobankol kənd məscidi - imam müavini vəzifəsi
11. Zaqatala rayonu, Faldarlı kənd məscidi – imam müavini vəzifəsi
12. Zaqatala rayonu, Lahıc kənd məscidi – imam müavini vəzifəsi
13. Qax şəhəri, "Mərkəzi Cümə" məscidi - imam vəzifəsi
14. Ağdaş rayonu, Ləki qəsəbə məscidi - imam vəzifəsi
15. Lənkəran rayonu, Lüvəsər kənd məscidi - imam müavini vəzifəsi
16. Lənkəran rayonu, İstisu qəsəbə məscidi – imam müavini vəzifəsi
17. Astara rayonu, Lovayn kənd məscidi - imam müavini vəzifəsi
18. Astara rayonu, Şuvi kənd məscidi - imam müavini vəzifəsi
19. Biləsuvar rayonu, İsmətli kənd məscidi - imam müavini vəzifəsi
20. Biləsuvar rayonu, "Cümə" məscidi - imam vəzifəsi
21. Cəlilabad şəhəri, "Cümə" məscidi - imam müavini vəzifəsi
22. Xaçmaz şəhəri, "Təzə şəhər" məscidi - imam müavini vəzifəsi
23. Xaçmaz rayonu, Xudat kənd məscidi - imam müavini vəzifəsi
24. Göyçay rayonu, Aşağı Qaraməryəm kənd məscidi - imam müavini vəzifəsi
25. İmişli şəhəri, "Məşədi Həbib" məscidi - imam vəzifəsi
26. İmişli şəhəri, "Cümə" məscidi - imam müavini vəzifəsi
27. İsmayıllı rayonu, "Məhəmmədiyyə" məscidi - imam vəzifəsi
28. Qobustan şəhəri, "Cümə" məscidi - imam müavini vəzifəsi
29.Quba şəhəri, "Ağməscid" məscidi - imam vəzifəsi
30. Quba rayonu, Ağbil kənd məscidi - imam müavini vəzifəsi
31. Ağcabədi rayonu, Avşar kənd məscidi - imam müavini vəzifəsi
32. Oğuz rayonu, Kərimli kənd məscidi - imam vəzifəsi
33. Siyəzən şəhəri, "Cümə" məscidi - imam vəzifəsi
34. Yardımlı şəhər məscidi - imam vəzifəsi
35. Masallı rayonu, Təzəkənd kənd məscidi – imam müavini vəzifəsi
36. Masallı rayonu, Ağakişibəyli kənd məscidi - imam müavini vəzifəsi
37. Daşkəsən şəhəri, "Cümə" məscidi - imam vəzifəsi
37. Neftçala şəhəri, "Sahib əz-Zaman" məscidi - imam vəzifəsi
39. Şəmkir rayonu, Düyərli kənd məscidi – imam vəzifəsi

Müsahibədə iştirak etmək istəyən namizədlər 24 may 2022-ci il tarixindən 24 iyun 2022-ci il saat 18:00-dək aşağıdakı sənədləri elektron qaydada sened@scwra.gov.az adresinə və ya kağız daşıyıcıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə (Bakı şəhəri, Səbail rayonu, Əhməd Cavad küçəsi 16, AZ 1001) təqdim etməlidirlər:

- Şəxsiyyət vəsiqəsinin surəti və ya bu barədə dövlət informasiya ehtiyatlarından çıxarış;
- Tərcümeyi-hal;
- Dini ali və orta ixtisas təhsil haqqında sənədin notarial qaydada təsdiqlənmiş surəti və ya bu barədə dövlət informasiya ehtiyatlarından çıxarış;
- Sağlamlıq haqqında arayış;
- Narkoloji dispanserdən arayış;
- Ruhi-əsəb dispanserindən arayış;
- Məhkumluq barədə arayış;
- Foto (3x4) (4 ədəd);
- Ərizə.
- Tələb olunan sənədlərdən əlavə namizəd özünün elmi-pedaqoji və yaradıcılıq fəaliyyəti barədə sənədləri də təqdim edə bilər.

Müsahibədə iştirakla bağlı sənədlərin qəbulu üçün müəyyən edilmiş son müddət bitdikdən sonra müsahibənin keçirilməsi vaxtı və yeri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin internet saytında yerləşdiriləcəkdir.

**Əlaqə nömrələri:**
(012) 497 02 53
(012) 492 62 29
(012) 437 31 15
(077) 209 60 70

# DÖVLƏT KOMİTƏSİ "ŞUŞA 270 İL" ADLI SƏNƏDLİ FİLMİN ÇƏKİLMƏSİ ÜÇÜN AÇIQ TENDER ELAN EDİB

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 25 fevral tarixli, 124 s nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Şuşa İli" ilə bağlı Tədbirlər Planına əsasən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən "Şuşa 270 il" adlı sənədli film ərsəyə gətiriləcəkdir.

Şuşa qalasının təməlinin qoyulmasının 270-ci ildönümünə həsr olunan filmdə mədəniyyət paytaxtımızın yaranma tarixi, unikal coğrafi yerləşməsi və əsrarəngiz təbiəti, Qarabağ xanlığı dövrü, Azərbaycan və bütün Cənubi Qafqazın ictimai-siyasi həyatındakı müstəsna roluna toxunulması nəzərdə tutulub. Eyni zamanda sənədli filmdə ədəbi, mədəni, elmi və ictimai fikir mühitinin görkəmli nümayəndələri olan Şuşa ziyalıları, Şuşa mədəniyyətinin Azərbaycan, eləcə də dünya mədəni irsinə verdiyi töhfələr, şəhərin tarixi-dini ibadət yerləri, işğala və vandalizmə məruz qalması, işğaldan azad olunması, həmçinin bərpa-quruculuq işlərinin başlanılmasından bəhs edilməsi planlaşdırılır.

6 may tarixindən etibarən başlayan açıq tenderə son müraciət 2022-ci il 8 iyunda saat 00:00-da bitəcəkdir. Bu tarixdən gec göndərilmiş müraciətlər etibarsız hesab ediləcəkdir.

Tenderə qəbul şərtləri ilə aşağıdakı link vasitəsilə tanış ola bilərsiniz:

https://www.etender.gov.az/competition/open-tenders

**Əlavə məlumat üçün:**
Telefon: (012) 497-15-39
E-poçt: y.aliyeva@scwra.gov.az



# "QARABAĞDAKI KİLSƏLƏR TARIXİ GÖRKƏMİNƏ QAYTARILACAQ"

***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dinşünaslıq ekspertizası şöbəsinin müdiri Nahid Məmmədovun publika.az saytına müsahibəsi.***

**- 30 illik işğal dövründə nə qədər dini abidəmiz ermənilərin təcavüzünün, vandalizminin qurbanı olub?**

- Əvvəla onu deyim ki, erməni vandalizminin kökləri 30 illik işğal dövründən öncələrə gedib çıxır. Hələ sovetlər dönəmində təmir-bərpa adı altında müxtəlif alban məbədlərimizin qriqoryanlaşdırılmasına cəhd edilib. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli, 132 nömrəli qərarı ilə təsdiq edilmiş "Dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı", "Ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı" və "Yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı"na əsasən, işğaldan azad edilmiş ərazilərimizdə dövlət qeydiyyatında olan tarix və mədəniyyət abidələrinin ümumi sayı 900-dən çoxdur. Heç şübhəsiz ki, siyahıya alınmayan, lakin əzəli torpaqlarımız Qarabağdakı varlığımızın, milli kimliyimizin maddi sübutları olan minlərlə tarixi abidəmiz, maddi-mədəni dəyərimiz var. Bəzi məlumatlara görə, dövlət qeydiyyatında olmayan abidələrin sayı 1500-dən artıqdır. Beynəlxalq əhəmiyyətli abidələrin sayı onlarladır. Eləcə də dağıdılmış qəbiristanların sayı 900-dən çoxdur. İşğaldan azad edilmiş ərazilərimizdəki tarixi-dini abidələrin təqribi sayı isə 403-dür. Onlardan 67-si məscidlər, 144-ü məbədlər, 192-i ziyarətgahlardır.

**- İşğaldan azad olunan ərazilərdə dağıntılara məruz qalmış məscid, kilsə və digər ibadətgahların təmir-bərpa işləri ilə bağlı Komitə hansı layihələri hazırlayıb?**

- Qarabağın bərpası prosesi Prezident İlham Əliyevin rəhbərliyi altında xüsusi diqqətlə həyata keçirilir. Bilirsiniz ki, öncə infrastruktur layihələri icra olunur. 30 ilə yaxın müddət ərzində el-obasından uzaq salınmış əhalimizin tezliklə Qarabağa qayıtması üçün yeni yaşayış yerləri inşa edilir. Bununla paralel tarixi dini abidələrimizin bərpası ilə bağlı işlər də həyata keçirilir. Şuşada, Daşaltıda, Hadrutda, Ağdamda, Zəngilanda və digər yerlərdə tarixi abidələrimizin bərpası ilə yanaşı, yeni məscidlərin təməlləri qoyulub. Şuşada Yuxarı və Aşağı Gövhər Ağa məscidləri, Saatlı məscidi, Ağdamda Cümə məscidi Heydər Əliyev Fondu tərəfindən bərpa olunur. Təkcə məscidlər deyil, xristian alban irsinə aid məbədlərimiz də bərpa edilir. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi olaraq bizim əsas vəzifələrimizdən biri ölkəmizin hər qarışında dini etiqad azadlığının həyata keçirilməsi üçün müvafiq şəraitin yaradılmasıdır. Bu məqsədlə dini əlamətdar günlərdə Dövlət Komitəsi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına daxil olan ərazilərdə yerləşən məscid və kilsələrdə vətəndaşlarımızın ibadət edə bilmələri üçün tədbirlər həyata keçirir. Xristian dini icmalarımızın nümayəndələri məbədlərdə dini ayinləri icra edirlər. Eləcə də Şuşada və Ağdamda bayram namazları qılınır.

**- Dağıntılara məruz qalan abidələrlə bağlı beynəlxalq təşkilatlar məlumatlandırılıbmı? Onların məsələyə reaksiyası necədir?**

- Uzun illərdir ki, Dövlət Komitəsi bu istiqamətdə məqsədyönlü fəaliyyətlə məşğuldur. Təcavüzə məruz qalmış abidələrimizlə bağlı faktları ortaya qoyan fotoların əldə edilməsi, müxtəlif materialların hazırlanması, onların təbliği ilə bağlı çoxsaylı tədbirlərimiz olub. Əsasən xarici qonaqlara bu materiallar təqdim olunub. Bundan başqa, müxtəlif vaxtlarda ali beynəlxalq qurumların iştirakı ilə keçirilən ölkə xaricindəki tədbirlərdə mütəmadi olaraq bu fotolar nümayiş etdirilib. Hökumət, eləcə də dini konfessiyalar adından beynəlxalq təşkilatlara müraciətlər ünvanlanıb.

**- Ümumiyyətlə, işğal dövründə ermənilər neçə dini abidəmizi tamamilə məhv ediblər?**

- 2020-ci ildə torpaqlarımız işğaldan azad edildikcə erməni təcavüzünün, barbarlığının ölçüsü əyani görünməyə başladı. Bütün dünya ermənilər tərəfindən azərbaycanlıların tarixi izlərinin silinməsi üçün qəbiristanlardakı məzar daşlarına qədər dağıdılmasını, ibadət yerlərinin uçurulmasını gördü. Hazırda bu istiqamətdə dəqiqləşdirmələr aparılır. Amma görünən odur ki, erməni vandalizmi təkcə müsəlman irsinə qarşı olmayıb. İşğaldan azad edilmiş ərazilərdə mövcud olan 67 məscidin bir neçəsinin yalnız əsas divarları qalıb, digərləri isə tamamilə dağıdılıb.

**- Bəs ermənilər tərəfindən bu vandalizm aktları əsasən hansı istiqamətlərdə aparılıb?**



- Ermənilərin tarixi-dini abidələrimizə qarşı vandal təcavüzü müxtəlif istiqamətlərdə aparılıb. Milli mənsubiyyəti və qədim tarixi milli, dini ənənəni özündə ehtiva edən abidələr tamamilə uçurulub. Bu abidələrin erməniləşdirilməsinə, özgələşdirilib dəyişdirilməsinə cəhd edilib. İşğal altındakı müsəlman abidələri, o cümlədən digər mədəniyyət göstəriciləri dağıdılıb, təhqir olunub. Məscidlərdə mal-qara və digər heyvanların saxlanılması faktı torpaqlarımız işğaldan azad edilərkən bir daha sübut edildi və bütün dünya ictimaiyyəti bu kadrları gördü. Tarixi alban məbədlərinin erməniləşdirilib qriqoryanlaşdırılmasına cəhdlər edilib. Alban irsinə məxsus Xristianlıq izləri qriqoryan xaçkarları ilə əvəz edilib. Məbədlərin üzərində olan daş kitabələr silinib. Həmin yerlər oyularaq qriqoryan xaçkarları yerləşdirilib. Bu iş o qədər kortəbii aparılıb ki, həmin xaçkarlara tarixi görkəm verməkdən ötrü müxtəlif kimyəvi məhlullardan istifadə edilməsinə baxmayaraq, hətta mütəxəssis olmayan istənilən sadə insan da onların tarixi divarlara yamaq kimi göründüyünü müşahidə edə bilər. Ermənilər, eyni zamanda saxtalaşdıra bilmədikləri alban abidələrini uçurublar. Hadrutda, Tuğda, Kəlbəcərdə bunun bariz nümunələri var. İnanırıq ki, sürətlə aparılan bərpa işləri sayəsində işğaldan azad edilmiş ərazilərimizdəki bütün məbəd və məscidlər tarixi görkəminə qaytarılacaq və vətəndaşlarımızın ixtiyarına veriləcək.

# CƏZAÇƏKMƏ MÜƏSSİSƏLƏRİNDƏ SEMİNAR-TRENİNQLƏR KEÇİRİLİB

Ədliyyə Nazirliyi Penitensiar Xidməti ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) arasında 2022-ci il üçün təsdiq edilmiş birgə tədbirlər planı çərçivəsində məhkumların asudə vaxtlarının səmərəli keçirilməsi, vicdan və dini etiqad azadlığının təmin olunması istiqamətində tədbirlər davam etdirilir.

Mayın 20-də 1 və 10 saylı cəzaçəkmə müəssisələrində məhkumların iştirakı ilə keçirilən bu qəbildən olan seminar-treninqlərdə Penitensiar Xidmətin əməkdaşları, DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin məsləhətçisi Ramil Baxşəliyev, eləcə də Azərbaycan İlahiyyat İnstitutunun müəllimi Elvüsal Məmmədov iştirak ediblər.

"Multikultural cəmiyyətdə ifrat məzhəbçilik və dini təəssübkeşlik meyillərinin yaratdığı problemlər" mövzusunda keçirilmiş görüşdə maarifləndirici söhbət aparılıb, əxlaq və fəzilətdən, dinin əmr və qadağalarından danışılıb.

Seminar-treninqlərdə məhkumlarla geniş diskussiya aparılıb, onları maraqlandıran suallar cavablandırılıb.





# ALBAN-UDİ XRİSTİAN DİNİ İCMASININ NÜMAYƏNDƏLƏRİ XUDAVƏNG MONASTIRINDA PASXA BAYRAMINI QEYD EDİBLƏR



Mayın 9-da Alban (Qafqaz) Apostol Müstəqil Kilsəsinin varisi olan Azərbaycan Alban-udi xristian dini icmasının nümayəndələri Pasxa bayramı münasibətilə Ermənistanın işğalından azad olunan Kəlbəcər rayonundakı Xudavəng monastır kompleksini ziyarət ediblər.

Dini icma nümayəndələri məbəd kompleksə aid kilsədə dini ayinlər icra edib, bayram duaları oxuyub, şamlar yandırıblar. Sonra icmanın üzvləri çıxış edərək Pasxa bayramının mahiyyətindən, dini ayinlərin icrası üçün yaradılan şəraitdən, dövlətimizin diqqət və qayğısından danışıblar.

Bildirilib ki, sovetlər dövründə udilərə öz milli bayramlarını keçirmək qadağan olunsa da, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra onlar etnik azlıq olaraq öz bayramlarını və adət-ənənələrini geniş qeyd edirlər.





# VƏTƏN MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

*2020-ci il sentyabrın 27-si səhər saatlarında Ermənistanın atəşkəs rejimini növbəti dəfə pozmasına cavab olaraq Müzəffər Azərbaycan Ordusunun əks-hücuma keçməsi ilə başlayan "Dəmir Yumruq" əməliyyatı - 44 günlük Vətən müharibəsi illərdir həsrətində olduğumuz Qarabağın işğaldan azad olunması ilə nəticələndi. İşğalda olan torpaqlarımızı azad etmək üçün böyük həsrətlə gözləyən xalqımızın növbəti erməni təcavüzünə qarşı göstərdiyi əsrarəngiz reaksiya – Vətənin müdafiəsi və ərazi bütövlüyünün bərpası naminə bir yumruq kimi birləşməsi həm də uzun illər ona edilən haqsızlığa qarşı döyüş ruhunun təcəssümü idi. Bu gün hər bir azərbaycanlı qələbəni yaşamaqla bərabər, bu yolda canını fəda edən Vətən övladlarının əziz xatirəsini də unutmur, daim onları yad edir və əbədiyyən qəlbində yaşadacaq. Çünki Vətən uğrunda canından keçən şəhidlərimiz, sağlamlığını itirən qazilərimiz 44 gün ərzində gələcək nəsillərimiz üçün örnək olacaq şanlı tarix yazdılar. Ümumiyyətlə, torpağı Vətənə çevirən, onu müqəddəsləşdirən, özlərini bu yolda fəda edənlər şəhidlərdir. Bu səbəbdən onların hər birini tanımaq və tanıtdırmaq cəmiyyət olaraq hər birimizin borcudur. Bu mənəvi borcdan irəli gələrək, "Cəmiyyət və Din" qəzeti 2021-ci ildəki ilk sayından etibarən şanlı zəfər tariximizi yazan şəhidlərimiz haqqında böyük fəxarət hissi ilə öz oxucularına məlumat verir, onların şərəfli ömür yollarına işıq tutmağa çalışır.*



**Abdullayev Həsən Aydın oğlu**

Şəhid Abdullayev Həsən Aydın oğlu 1990-cı il oktyabrın 15-də Kəlbəcər rayonunun Zivel kəndində anadan olub. Qəhrəmanımızın doğulub boya-başa çatdığı kənd 1993-cü ildə Ermənistan Respublikası tərəfindən işğal olunduqdan sonra o, ailəsi ilə birlikdə İsmayıllı rayonunun Quşencə kəndində məskunlaşıb. 1997-ci ildə Quşencə kənd tam orta məktəbin 1-ci sinfinə qəbul olunub, 2008-ci ildə həmin məktəbin 11-ci sinfini bitirib. 2008-ci ilin oktyabrında Kəlbəcər rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılan qəhrəmanımız Daxili Qoşunların "N" saylı hərbi hissəsində hərbi xidmətdə olub. Hərbi xidmətini başa vurduqdan bir müddət sonra yenidən Daxili Qoşunlara qayıdıb. Həsən 2012-ci ildə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu vəzifəsinə qəbul edilməsi üçün lazım olan imtahanlardan uğurla keçərək "kiçik çavuş" rütbəsi alıb və xidmətə başlayıb. Daha sonra isə xidmətinə Daxili Qoşunların Xüsusi Təyinatlı Dəstəsində davam edən qəhrəmanımız fiziki göstəricilərinə və döyüş ruhuna görə hər zaman fərqlənməyi bacarıb.

27 sentyabr 2020-ci il Vətən müharibəsi başlayan ilk gündən Həsən Murov dağdan Kəlbəcər istiqamətində hücuma keçən XTQ tərkibində döyüşüb. Oktyabrın 1-də verilən döyüş tapşırığını yerinə yetirirkən qəhrəmancasına şəhid olur. Şəhidimizin nəşi oktyabrın 2-də ailəsinə təhvil verilib. O, oktyabrın 2-də Quşencə kəndində uğrunda canını fəda etdiyi Vətən torpağına tapşırılıb.

Şəhid atası oğluyla sonuncu görüşünü belə xatırlayır: "Yayda İsmayıllı rayonunda təlimlərdə idi və orda Həsənlə görüşdüm. Dedim ki, Həsən, bu təlimlərdən sonra siz müharibəyə gedəcəksiniz. Nə edirsən et, amma düşmənə saf can vermə və bir də arxadan vurulma. Axşam isə mənə yazdı ki, "xüsusi təyinatlılar heç vaxt düşmənə sağ can vermir". Elə sonuncu danışığımız da bu olub. Ondan sonra döyüşlər başladı və onunla əlaqə saxlaya bilmədik".

Qeyd edək ki, şəhidimiz subay idi.

Döyüş əməliyyatları zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə çavuş Abdullayev Həsən Aydın oğlu ölümündən sonra "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.



**Abdullayev Həsən Qərib oğlu**

Şəhid Abdullayev Həsən Qərib oğlu 1994-cü il iyunun 21-də Daşkəsən rayonunda doğulub. 2000-ci ildə Daşkəsən rayon Səməd Vurğun adına 4 nömrəli tam orta məktəbə daxil olub. 2011-ci ildə orta təhsilini başa vuran qəhrəmanımız idmanın karate-do növü ilə də məşğul idi, bir sıra nailiyyətlər əldə etmişdi.

Həsən 2012-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) Daşkəsən rayon şöbəsindən həqiqi hərbi xidmətə çağırılıb, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin kəşfiyyat bölüyündə hərbi xidmətdə olub. Hərbi qulluqda olduğu müddətdə özünü nizam-intizamlı, vəzifə borclarına layiqincə yanaşan, üzərində məsuliyyəti dərindən dərk edən əsgər kimi göstərib. Həsən 2014-ci ilin yanvar ayında hərbi xidmətini uğurla başa vurub. Həqiqi hərbi xidmətdən qayıtdıqdan sonra idmançı kimi fəaliyyətini davam etdirib.

2020-ci ilin 12 iyulunda düşmənin təxribatı nəticəsində Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində gedən şiddətli döyüşlər bir çoxu kimi Hikmətin də həyatının dönüş nöqtəsi olub. Milli Qəhrəman general-mayor Polad Həşimovun şəhadətindən sonra o, SHXÇDX-nin Daşkəsən rayon şöbəsinə könüllü kimi müraciət edib. Lakin 1 aydan çox vaxt keçsə də, hər hansı cavab almadığını qəhrəmanımız sənədlərini "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı" kursuna verib. O, 2020-ci il sentyabrın 8-də kursu uğurla bitirərək Silahlı Qüvvələrin Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissəsində xidmətə başlayıb. Təcavüzkar Ermənistanın 2020-ci il sentyabrın 27-də əl atdığı növbəti qanlı təxribata cavab olaraq ordumuzun başladığı əks-hücum əməliyyatında Həsən də xidmət etdiyi hərbi hissənin tərkibində döyüşlərə qatılıb. O, Kəlbəcər, Ağdərə və Şuşa istiqamətlərində gedən döyüşlərdə igidliklər göstərib, qəhrəmanlığı ilə seçilib. Noyabrın 6-da onun təmsil olunduğu bölük Daşaltı kəndində onlara verilən tapşırığı yerinə yetirərkən Həsən qəhrəmancasına şəhid olub. O, 12 noyabr 2020-ci ildə Gəncə şəhərinin Şəhidlər Xiyabanında uğrunda canını fəda etdiyi Vətən torpağına tapşırılıb.

Qəhrəmanımız subay idi. Ailədə bir bacı, iki qardaş idilər.

Cəsurluğu və şücaəti ilə adını tariximizin şanlı səhifəsinə əbədi yazan əsgər Abdullayev Həsən Qərib oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Kəlbəcərin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.



**Abdullayev Hikmət Şaiq oğlu**

Şəhid Abdullayev Hikmət Şaiq oğlu 1998-ci il sentyabrın 20-də Beyləqan rayonunun Birinci Şahsevən kəndində dünyaya gəlib. O, 2004-cü ildə Əli Rüstəmov adına Birinci Şahsevən kənd 2 nömrəli tam orta məktəbin birinci sinfinə daxil olub, 2015-ci ildə həmin məktəbin 11-ci sinfini bitirib. Hikmət 2016-ci ilin oktyabrında SHXÇDX-nin Beyləqan rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Silahlı Qüvvələrin Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmət edib. 2018-ci ildə hərbi xidmətini uğurla başa vurub, 2019-cu ildə isə sənədlərini "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı" kursuna verib. Kursu uğurla bitirərək Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissənin təmir bölüyündə təmirçi-çilingər kimi xidmətə başlayıb.

Sentyabrın 27-də Vətən müharibəsi başlayanda Hikmət də öz üzərinə düşən işin öhdəsindən layiqincə gəlib, ön cəbhədə nasazlıq yaranan texnikaları təmir edib, həm də peşəkar hərbçi kimi digər əməliyyatlarda da yaxından iştirak edib. 44 günlük müharibədə xalqımıza zəfər sevinci yaşadan müzəffər ordumuzun müsəlləh əsgəri olan Hikmətin özünə isə bu sevinci yaşamaq müharibədən sonra cəmi 13 gün nəsib olub. Noyabrın 23-də Daşaltı kəndi yaxınlığında uçquna düşmüş tankı çıxarmağa gedərkən olduğu tank dumanlı havada qəzaya uğrayıb, o və 4 hərbçi yoldaşı şəhid olub. Hikmət noyabrın 24-də Birinci Şahsevən kəndində dəfn edilib.

Şəhidimiz subay idi.

Adını zəfər tariximizə yazan qəhrəmanlarımızdan olan əsgər Abdullayev Hikmət Şaiq oğlu iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif edilib.

Hazırladı: **Ramil HİKMƏT**

# İSLAM MƏDƏNİYYƏTİ PAYTAXTI - 2020

## BUXARA

Buxara Özbəkistan Respublikasının və Mərkəzi Asiyanın qədim şəhərlərindən biri, Buxara vilayətinin inzibati, iqtisadi və mədəni mərkəzidir. Bəzi qaynaqlara görə, şəhərin 2500 yaşı olsa da, insanlar Buxaranın ətrafındakı bölgədə ən azı beş min il bundan əvvəl məskunlaşmışlar. İpək Yolu üzərində yerləşən, uzun müddət ticarət, elm, mədəniyyət və din mərkəzi kimi xidmət etmiş şəhər Özbəkistanın cənub-qərbində, Zərəfşan çayının aşağı axarında yerləşir. Paytaxt Daşkənddən 616 km məsafədədir, ərazisi 143 km², əhalisi isə təxminən 250.000 nəfərdir.

Buxara şəhərinin qədimdə necə adlandırılğı haqqında dəqiq məlumat yoxdur, lakin V əsr Çin mənbələrində "Nyumi" kimi qeyd olunur. Tan imperiyasının VII əsr salnamələrində Buxara şəhəri "An" ("Anqo"), "Ansi", "Buxo" ("Buxe", "Fuxo") formalarında qeyd olunur. Ərəb mənbələrində isə "Bumiskat", "Mədinət us-süfriya" ("Mis şəhər"), kimi göstərilir. Qədim yerli mənbələrə görə, "Buxara" sözü "bütlər məbədi" mənasını verən sözdən törəyib. Orta əsr mənbələrində şəhərin adının sanskritcə "vihara" ("ibadətgah", "monastır") sözü ilə bağlı olduğu bildirilir.



Buxara Şərqin ən məşhur qədim şəhərlərindən biridir. Arxeoloji məlumatlara görə, onun əsası eramızdan əvvəl VI əsrdə qoyulmuşdur. X əsr tarixçisi Məhəmməd Narşahinin "Tarixi Buxara" əsərində qədim zamanlarda şəhərdə flora və faunanın unikal, göllər və çaylarla zəngin olduğu göstərilir. Tapılan sikkələr göstərir ki, Buxarada qədim zamanlardan ticarət və əmtəə münasibətləri yüksək xətlə inkişaf etmişdir. Müxtəlif dövrlərə aid olan sikkələrdən asılı olaraq hakim sülalələrin dəyişməsini, hökmdarların adlarını, titullarını, sülalələrin rəmzlərini - möhür və digər təsvirləri aydın görmək mümkündür.

Buxara tarixin müxtəlif dövrlərində Göytürk, Ərəb xilafəti, Samanilər, Qaraxanlılar, Xarəzmşahlar, Teymurilər, Buxara xanlığı kimi dövlətlərin paytaxtı və ya əsas şəhərlərindən olmuşdur. Tarixi İpək Yolunun üzərində yerləşməsi və paytaxt olması buranı elm və mədəniyyət mərkəzinə çevrilməsinə, əsrarəngiz memarlıq nümunələrinin ərsəyə gəlməsinə xidmət etmişdir. Hazırda şəhərdə Ümumdünya İrs Siyahısına daxil edilmiş 140-a yaxın memarlıq abidəsi var.

Belə memarlıq abidələrindən ən qədimi "Buxara Gəmisi" kimi məşhur olan Ark qalasıdır. Qala eramızdan əvvəl V əsrdə tikilmiş və əsrlər boyu bu şəhər hakimlərinin yaşadığı yer olmuşdur. Şəhərə hücumlar nəticəsində dağılan qala Samanilər dövründə (IX-X əsrlər) yenidən tikilmiş, divarlar və bürclərlə möhkəmləndirilmişdir. Qaraxanlılar dövründə (XI-XII əsrlər) və monqol istilası zamanı (XIII əsr) qala bir neçə dəfə dağılmışdır. Onun indiki görünüşü əsasən Şeybanilər sülaləsi dövründə (XVI əsr) formalaşmışdır.

Şəhərdə memarlıq nümunələrinin inşasının yeni mərhələsi ərəb istilasından sonra, yəni İslamın gəlişi ilə baş vermişdir. İslamın Buxaraya gəlişi VIII əsrin əvvəllərində Əməvi xilafətinin Xorasandakı naibi Quteybə ibn Müslim şəhəri ələ keçirməsi ilə baş vermişdir. Ərəblər əvvəlki dövrlərdə mövcud məbədləri məscidə çevirmiş və yenilərini inşa etdirmişlər. Orta əsr tarixçilərinin əsərlərində Buxaranın geniş küçələri, dəbdəbəli hamamları, gözəl bazarları, əzəmətli məscidləri, mədrəsələri haqqında xəbər verilir.

Şəhər ilk dəfə Samanilər dövlətinin məşhur hökmdarı İsmayıl Samani tərəfindən paytaxt elan edilmişdir. Samanilər dövründə Buxara böyük dinşünaslıq mərkəzinə çevrilmiş və İslamın elm sütunlarından biri kimi şöhrət qazanmışdır. Samanilərin vaxtında mədrəsələrin açılması geniş vüsət almışdır. Buxara şəhərinin ən qədim mədrəsələrindən olan Fərcok mədrəsəsi bunlardan biridir. IX əsrin məşhur hədis alimi İmam əl-Buxari və dünya şöhrətli alim Əbu Əli ibn Sina Buxarada doğulmuş və təhsil almışlar.

Samanilər dövründə bir çox memarlıq nümunəsi inşa edilsə də, günümüzədək yalnız Buxara şəhər Mədəniyyət və İstirahət Parkının ərazisində yerləşən, İsmayıl Samaninin əmri ilə inşa edilən Samanilər türbəsi gəlib çatmışdır. Yazılı mənbələrə və rəvayətlərə görə, məqbərə İsmayıl Samaninin atasının məzarı üzərində tikilmişdir. İçərisində kərpicdən beşik formasında hörülmüş böyük məzar olan türbənin özü də dördbucaqlı formada, kərpicdən tikilmişdir. Tikilinin üstü kərpiclərlə hörülmüş qübbəylə örtülmüşdür. Qübbənin təpə nöqtəsindəki işıqlandırma fənərləri erkən Osmanlı dövründə tikilmiş məscidlərin qübbələrindəki fənərlərə bənzəyir. Həm daxilinin, həm də xaricinin müxtəlif bəzəkli kərpiclərlə işlənməsi bu yerin kərpicin dekorativ məqsədlə istifadə edilən ilk türbə olduğunu sübuta yetirir.

Buxara memarlığının və dekorativ sənətinin ənənələrini özündə əks etdirən nümunələrdən olan Buxara namazgahı Qaraxanlılar sülaləsinin yay iqamətgahının yerində tikilmişdir. Namazgah sadə kərpicdən tikilmiş və hündür divarla əhatə olunmuşdur. XVI əsrdə aparılan təmir zamanı məscid binasına bitişik üç mərtəbəli, sütunlu eyvan tikilmişdir. Namazgahın damı mürəkkəb naxışlar və Quran ayələri ilə bəzədilmişdir. Buxara namazgahı mehrabı və onun naxışlı kaşıları ilə seçilir.

Buxaradakı Kalan məscidi Orta Asiyada qorunub saxlanılan Cümə məscidlərindən olan Bibixanım məscidindən sonra ikinci ən böyük məsciddir. Tutumu 12000 nəfərdir. Arxeoloji araşdırmalara görə, indiki məscidin altında daha iki məscidin qalıqları var. Onlardan biri Arslan xan tərəfindən tikilmişdir. Tamamilə kərpicdən inşa edilmiş bu bina mövcud bina ilə eyni ölçülərə sahib olmuşdur. Kalan məscidi 1399-1404-cü illərdə Səmərqənddəki Bibixanım məscidi tikilənə qədər Mavəraünnəhrdə ən böyük məscid idi. Onun üçüncü, yəni hazırda mövcud olan binası, Teymurilər dövründə, Mirzə Uluqbəy (1409-1449) zamanında inşa edilmişdir. Məscid düzbucaqlı formadadır, geniş həyəti günbəzli eyvanla əhatə olunmuşdur. Tikili 208 sütundan ibarətdir və onların üzərində özünəməxsus əzəmətli görkəmi olan 288 qübbə dayanır. Məscid eksteryer və möhtəşəm dekorasiyası ilə göz oxşayır.

Poi Kalan memarlıq ansamblının məşhur abidələrindən biri də XVI əsrdə Şeybanilər sülaləsinin hakimiyyəti dövründə inşa edilən Mir ərəb mədrəsəsidir. Buxara xanlığının əsas dini mərkəzlərindən biri olan mədrəsə 1920-ci ildə şəhərin Qızıl Ordu tərəfindən işğalından sonra bağlanmış, 1946-cı ildə Orta Asiya və Qazaxıstan Müsəlmanları Ruhani İdarəsinin yaradıcılarından biri və ilk sədri Şeyx Eşon Babaxan ibn Əbdülməcidxanın təşəbbüsü ilə yenidən fəaliyyətə başlamışdır. 1993-cü ildə UNESCO-nun Ümumdünya Mədəni İrs siyahısına daxil edilmişdir.

Buxarada Köşmədrəsə (Qoş Mədrəsə) ansamblının şimal hissəsində yerləşən Abdullaxan mədrəsəsi Özbək hökmdarı II Abdullahın dövründə inşa edilən ən mükəmməl əsərdir. XVI əsrdə Buxara memarlığının bütün yaradıcılıq nailiyyətlərini nümayiş etdirən mədrəsənin quruluşu digər mədrəsələrdən çox fərqlidir. İkimərtəbəli, hündür tavanlı mədrəsə dərs otaqlarından, mehmanxanadan və məsciddən ibarətdir. Mədrəsənin daxili və xarici orta şərq ornamentləri ilə bəzədilmişdir. 2021-ci il iyul ayında onun arxa divarının bir hissəsi uçmuşdur.

Özünəməxsus təsviri ilə Mərkəzi Asiyanın İslam memarlığının unikal sərvətlərindən hesab olunan Çor Minor (Dörd minarə) 1807-ci ildə şəhərin varlı insanlarından olan türkmən əsilli Niyaz-gül tərəfindən tikilmişdir. Məscid və mədrəsədən ibarət olan kompleks Orta Asiya məscidlərinə xas interyerə malikdir. Binanın günbəzinin quruluşu binanın akustikasına töhfə verir. Bu, məsciddə edilən dualar zamanı yaxşı hiss olunur. Məscidin dörd qülləsindən üçü anbar kimi istifadə edilmişdir. Onların hər biri göy rəngli keramik plitələrlə tikilən günbəzlərlə örtülmüşdür. Qüllələrdə müxtəlif dekorativ motivlər var. Bəzi tədqiqatçılar bəzək elementlərinin orta asiyalılara məlum olan dörd dini əks etdirdiyini bildirirlər. 1995-ci ildə yeraltı su axını səbəbindən dörd qüllədən biri qəzalı vəziyyətdə düşmüş və UNESCO tərəfindən Ümumdünya İrs Fondu çərçivəsində restavrasiya işləri aparılmışdır.

Buxaranın məşhur tarixi abidələrindən biri də 1712-ci ildə özbək hökmdarı Əbülfeyz-Xanın anası Sitorai Moxi-Xosanın vəsaiti hesabına tikilmiş Bolo Hovuz məscididir. Məscid düzbucaqlı formasındadır. Geniş günbəzinin altında bir neçə girişdən, on iki sütündan ibarət olan qış zalında qanç stalaktitləri ilə bəzədilmiş mehrab yerləşir. Məscidin ən diqqətçəkən elementi qoz, qaraağac və qovaq ağaclarından düzəldilmiş 20 sütunlu eyvanıdır. Sütunların göbələk formalı stalaktit başlıqları parlaq rəngli rəsmlərlə bəzədilmişdir. Məscidin interyeri XVIII əsrə aid Orta Asiya üslubundadır. Qarşısında hovuz, yan tərəfdə isə 1917-ci ildə tikilmiş kiçik minarə var.

Bunlardan əlavə, bir sıra memarlıq nümunələri var ki, Buxaranı, eləcə də Orta Asiyanın memarlıq tarixini özündə təcəssüm etdirir. Əyyub məqbərəsi, Əbdüləzixzan mədrəsəsi, Nadir Divan bəyi mədrəsəsi, "Ləbi Hauz"ansamblı bu memeralıq incilərindəndir.

Buxara 2020-ci ildə İslam mədəniyyətinin paytaxtı seçilmişdir.

Hazırladı: **Tural Vəlizadə**

# QISA-QISA

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, cəmiyyətimizin maddi və mənəvi cəhətdən səfərbər olunması, insanların mənəvi baxımdan sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini may ayı ərzində də davam etdirmişdir.

Cari ay ərzində bu qəbildən olan tədbirlər:

**4 may** – DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Tərtər Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə Tərtər şəhəri 6 saylı tam orta məktəbdə "Qızları təhsildən yayındırmağın hüquqi və mənəvi məsuliyyətləri" mövzusunda;

**5 may** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilin Quba regional mərkəzi və Quba şəhəri "Cümə" məscidi dini icmasının birgə təşkilatçılığı ilə Quba şəhər "Cümə" məscidində "Dövlət-din münasibətlərində Heydər Əliyev məfkurəsi" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi, Bərdə Rayon Gənclər və İdman İdarəsinin (GİI) birgə təşkilatçılığı ilə Bərdə rayon Saatlı kənd tam orta məktəbində "Radikalizmə qarşı mübarizədə gənclərin rolu" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Neftçala rayonunda "Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasında dini icmaların rolu" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH və Rayon Təhsil Şöbəsinin (RTŞ) birgə təşkilatçılığı ilə Vətən Müharibəsi Qəhrəmanı Amin Novruzov adına Humanitar və Texniki təmayüllü liseydə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü ilə əlaqədar "Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət-din münasibətləri" mövzusunda;



**6 may** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi, Yeni Azərbaycan Partiyasının (YAP) Rayon Təşkilatı və Gənclər-Evi Sosial Xidmət müəssisəsinin birgə təşkilatçılığı ilə "Ulu Öndər Heydər Əliyev və azərbaycançılıq ideologiyası" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi və Hacıqabul RİH-in birgə təşkilatçılığı ilə "İdeoloji təhlükəsizlik-sağlam gələcək" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi, Salyan RİH, Təhsil Şöbəsi, Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "Uşaqların vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Saatlı RİH, Gənclərin İnkişaf və Karyera Mərkəzinin Saatlı rayonu üzrə nümayəndəliyi, rayonun "Gənclər Evi" sosial xidmət müəssisəsi, Uşaq və Ailələrə Dəstək Mərkəzinin təşkilatçılığı ilə "Narkomaniyaya yox, erkən nikah və dini radikalizmə qarşı mübarizə" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, Ağsu rayon GİI-nin birgə təşkilatçılığı ilə Ağsu şəhər 4 saylı tam orta məktəbində "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Ucar rayonu Lək kənd məscidi dini icmasının birgə təşkilatçılığı ilə "Dini fanatizm, radikalizm və ekstremizmin mahiyyəti və təhlükələri" mövzusunda;

**10 may** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibəti ilə Quba, Xaçmaz, Qusar, Şabran və Siyəzən rayonlarında tədbirlər; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibəti ilə tədbir; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibəti ilə Lənkəran, Astara və Lerik rayonlarında tədbirlər; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, rayon Təhsil Şöbəsi, Rayon Gənclər və İdman İdarəsi, Gənclərin İnkişaf və Karyera Mərkəzinin İmişli nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" mövzusunda;

**11 may** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH, rayon Təhsil Şöbəsi, eləcə də Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Yuxarı Tala kəndi 4 saylı tam orta məktəbində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibəti ilə "Azərbaycançılıq ideologiyası" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Qax RİH və Qax RTŞ-nın birgə təşkilatçılığı ilə Qorağan kənd tam orta məktəbində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibəti ilə "Dövlətimizin din siyasəti" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Kürdəmir rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Məişət zorakılığının qarşısının alınması, həmçinin onunla mübarizə" mövzusunda;



**12 may** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağdaş rayonunda "İnsan hüquqları aylığı" çərçivəsində "İnsanların inanc azadlığına hörmət hüququ mənəvi borcumuzdur" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi, Şəki Şəhər-Rayon Polis Şöbəsi (ŞRPŞ) və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin (ŞZRTİ) birgə təşkilatçılığı ilə şəhər 18 nömrəli tam orta məktəbində "Dini radikalizmə qarşı mübarizədə maarifçilik" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Saatlı rayon GİI, rayon "Gənclər Evi" sosial xidmət müəssisəsinin birgə təşkilatçılığı ilə "Şuşa ili" çərçivəsində "Şuşa - Azərbaycan mədəniyyətinin paytaxtıdır" mövzusunda;

**13 may** – DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi nəzdində fəaliyyət göstərən Hacıqabul Uşaq və Ailələrə Dəstək Mərkəzinin (UADM) birgə təşkilatçılığı ilə Hacıqabul rayonunda "Milli dövlətçiliyin möhkəmlənməsi: Azərbaycançılıq ideologiyası və mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi, Salyan RİH, Salyan RTŞ və Salyan rayon GİI birgə təşkilatçılığı ilə Salyan rayonunda Şəhid Ziya Həmidov adına Çuxanlı kənd tam orta məktəbində "İnsan hüquq və azadlıqlarına hörmət hüquqi və mənəvi borcumuzdur" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Kürdəmir rayon Şıxımlı kənd "Hacı Cəmaləddin" məscidi dini icmasının birgə təşkilatçılığı ilə "Xalqımızın tolerantlıq ənənələrinin və multikulturalizm siyasətinin milli həmrəyliyimizin möhkəmlənməsindəki önəmi" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Göyçay RİH və Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə "Dini radikalizmə, zərərli vərdişlərə, erkən nikaha yox deyirik" mövzusunda;



**17 may** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə Dövlət Universitetinin nəzdində birləşmiş Regional Kollecdə "Xalqımızın milli birliyinin möhkəmlənməsində mənəvi dəyərlərimizin rolu" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin və Bərdə Rayon GİI-nin birgə təşkilatçılığı ilə Bərdə "ASAN xidmət" mərkəzində "Gənclərin mənəvi dünyagörüşünə təsir edən amillər" mövzusunda;

**18 may** – DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, Ağsu rayon GİI-nin birgə təşkilatçılığı ilə Ağsu rayon Mərkəzi Kitabxanasında "Doğulanlar arasında cins nisbətinin pozulmasının əhalinin demoqrafik strukturuna təsiri" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Mingəçevir Gənclər Evi" Sosial Xidmət Müəssisəsində "Dini məzhəbçilik meyillərinin milli birliyə və dini təhlükəsizliyə təsiri" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin, Siyəzən RİH-in və Yeni Azərbaycan Partiyasının Siyəzən rayon təşkilatının birgə təşkilatçılığı ilə Siyəzən şəhər Mədəniyyət mərkəzində "Milli-mənəvi dəyərlərimizi qoruyaq və təbliğ edək!" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin və "Şirvan Gənclər Evi" Sosial Xidmət Müəssisəsinin birgə təşkilatçılığı ilə "Radikalizmə qarşı mübarizədə gənclərin rolu" mövzusunda;




**19 may** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Qusar Peşə Liseyi və Qafqaz Müsəlmanları İdarəsinin birgə təşkilatçılığı ilə Qusar Peşə Liseyinin akt zalında "Multikultural cəmiyyətdə məzhəbçilik və dini təəssübkeşlik meyillərinin yaratdığı problemlər" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə bölməsinin birgə təşkilatçılığı ilə Şuşa ilinə həsr olunmuş "Şuşa mənəviyyat incisi" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi, Tovuz RİH və Rayon GİI-nin təşkilatçılığı ilə "İnsanların inanc azadlığına hörmət mənəvi borcumuzdur" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi, Salyan RİH, RTŞ, Rayon GİI-nin birgə təşkilatçılığı ilə "İdeoloji təhlükəsizlik-sağlam gələcək" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Göyçay rayon Elnur Seyidov adına Ulaşlı-Şıxlı kənd tam orta məktəbində maarifləndirmə tədbiri; DQİDK-nın Ucar bölgəsi, Zərdab şəhər Peşə Liseyi ilə "Yeniyetmə və gəncləri dini radikalizmin təsirlərindən qoruyaq", Ucar rayonu Rəstəcə kənd tam orta məktəbilə isə "Məktəblilərin mənəvi dünyagörüşünə təsir edən amillər" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Rayon GİI, Rayon "Gənclər Evi" sosial xidmət müəssisəsinin birgə təşkilatçlığı ilə "Seçim həmişə var: narkotik vasitələrə "Yox" deməyi bacar!" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və Şamaxı RİH-in birgə təşkilatçılığı ilə "Dini radikalizmə, zərərli vərdişlərə və erkən nikaha yox deyirik!" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH, Rayon "Gənclər evi" sosial xidmət müəssisəsi və Polis şöbəsinin birgə təşkilatçılığı ilə "18 may-18 iyun İnsan hüquqları aylığı" çərçivəsində "İnsan hüquqları: Dini etiqad azadlığı" mövzusunda;

davamı səh. 15

# QISA-QISA

əvvəli səh. 14



**20 may** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Kürdəmir rayonu Qarasu kənd məscidi dini icmasının birgə təşkilatçılığı ilə "İnsan Hüquqları Aylığı" çərçivəsində "İnsan hüquq və azadlıqlarına hörmət hüquqi və mənəvi borcumuzdur" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı, Daşkəsən RİH-in dəstəyi ilə "Yeniyetmə və gəncləri radikalizm və ekstremizm təhlükəsindən qoruyaq" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Göygöl RİH-in birgə təşkilatçılığı ilə Gənclər evində "Sağlam gənclik sağlam gələcək deməkdir" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Zərdab rayon Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə "Uşaqların doğulanadək cins seçiminin qarşısının alınması" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Zərdab RİH, Rayon GİL-nin birgə təşkilatçılığı ilə "Narkomaniyaya yox deyək" mövzusunda;

**24 may** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Saatlı Rayon GİL, Sabirabad regional Mədəniyyət və turizm idarəsinin Saatlı rayon üzrə nümayəndəliyinin birgə təşkilatçılığı ilə "İnsan hüquqları aylığı" çərçivəsində "İnsanların inanc azadlığına hörmət hüququ mənəvi borcumuzdur" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi və Şəmkir RİH-in birgə təşkilatçılığı ilə "Qızların təhsildən yayındırılmasının hüquqi və mənəvi məsuliyyətləri" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin, Zaqatala RİH-in və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Zaqatala rayonu A.Qurbanov adına Üçüncü Tala kənd tam orta məktəbində Azərbaycanın dövlət müstəqilliyinin 104-cü ildönümü münasibətilə "28 May-Müstəqillik Günü" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Göygöl RİH-in birgə təşkilatçılığı ilə Göygöl şəhər Heydər Əliyev Mərkəzində "Yeniyetmə və gəncləri radikalizm və ekstremizm təhlükəsindən qoruyaq!" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Göyçay RİH və Göyçay rayon Qarabaqqal kənd "Cümə" məscidi dini icmasının birgə təşkilatçılığı ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planı çərçivəsində "Narkomaniya: səbəbləri və ona qarşı mübarizə yolları" mövzusunda;

**25 may** – DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi, Oğuz Rayon GİL və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Oğuz şəhər Emin Abdullayev adına 2 nömrəli tam orta məktəbdə "Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət-din münasibətləri" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin, Siyəzən RİH, İnsan Hüquqları üzrə Müvəkkilin Quba regional mərkəzi və Siyəzən rayon GİL-nin birgə təşkilatçılığı ilə Siyəzən rayon Gənclər mərkəzində İnsan Hüquqları Aylığı çərçivəsində "İnsanların inanc azadlığına hörmət hüquqi və mənəvi borcumuzdur" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi, Ombudsman Aparatının Gəncə Regional Mərkəzi və Samux RİH-in birgə təşkilatçılığı ilə Samux rayon N.Gəncəvi adına Sərkar kənd tam orta məktəbində "Dini radikalizm, erkən nikah və digər zərərli vərdişlərə qarşı mübarizə" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Kürdəmir RİH, Heydər Əliyev Mərkəzi, Gənclərin İnkişafı və Karyera mərkəzinin Kürdəmir nümayəndəliyinin birgə təşkilatçılığı ilə "28 May-Müstəqillik Günü" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Zərdab rayon Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə "Müstəqilliyimizin qüruru-28 May" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Zərdab rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "28 May Müstəqillik Günü-tariximizin ən şanlı və parlaq səhifələrindəndir" mövzusunda;

**26 may** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağdaş rayonunda "28 May-Müstəqillik günü tariximizin şanlı səhifəsidir" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Sabirabad RİH, Sabirabad Regional Mədəniyyət idarəsinin və rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin birgə təşkilatçılığı ilə "28 May-Müstəqillik Günü" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin, Quba rayonu II Nügədi kəndi "Molla Hud" və "Hacı Seyid Siracəddin" məscidləri dini icmalarının və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Quba rayonu üzrə səlahiyyətli nümayəndəliyinin birgə təşkilatçılığı ilə rayonun II Nügədi kəndində "28 May - Müstəqillik Günü: milli birlik, həmrəylik, vətənpərvərlik" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və Qobustan RİH-in birgə təşkilatçılığı ilə Qobustan şəhər Ağasəf Qayibli adına 3 saylı məktəbdə "Dövlətçilik, müstəqillik, milli birlik, vətənpərvərlik" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Müdafiə Nazirliyinin Kürdəmir rayonunda yerləşən "N" saylı hərbi hissəsinin birgə təşkilatçılığı ilə "Dini ekstremizmlə mübarizədə hərbi qulluqçuların yeri və rolu" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Ombudsman Aparatının Gəncə regional mərkəzinin birgə təşkilatçılığı ilə Yeni Azərbaycan Partiyasında insan hüquqları aylığı çərçivəsində "İnsan hüquq və azadlıqlarına hörmət hüquqi və mənəvi borcumuzdur" mövzusunda; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi və Sumqayıt şəhər Cümə məscidi dini icmasının birgə təşkilatçılığı ilə 28 May-Müstəqillik Gününə həsr olumuş tədbir; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi, Oğuz Rayon Gənclər və İdman İdarəsi, Şəki-Zaqatala Regional Təhsil İdarəsi, YAP Oğuz Rayon Təşkilatı və rayon Mərkəzi Kitabxanasının birgə təşkilatçılığı ilə 28 may - Müstəqillik Gününə həsr olunmuş tədbir; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və Ağsu rayonu Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə 28 May - Müstəqillik Günü ilə əlaqədar "Daim uğurları ilə yüksələn doğma vətən - Azərbaycan" mövzusunda; DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi və Qaradağ RİH-in birgə təşkilatçılığı ilə Qaradağ Gənclər Evində "Dini radikalizmə qarşı mübarizədə gənclərin rolu" mövzusunda;

**27 may** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lənkəran Tarix-Diyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə 28 May-Müstəqillik Gününə həsr edilmiş tədbir; DQİDK-nın təşkilatçılığı ilə Goranboy rayonu və Naftalan bölgəsi üzrə dini icma üzvlərinin iştirakı ilə "Milli-mənəvi dəyərlərimiz və dini icmaların rolu" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax rayon D.Əliyeva adına 1 nömrəli tam orta məktəbdə "Yeniyetmə və gəncləri radikalizm və ekstremizm təhlükəsindən qoruyaq" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və İsmayıllı Rayon Polis Şöbəsinin (RPŞ) birgə təşkilatçılığı ilə "İnsan hüquq və azadlıqlarına hörmət hüquqi və mənəvi borcumuzdur" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Zərdab rayonu Məlikli kənd məscidi dini icmasının birgə təşkilatçılığı ilə "Xalqımızın milli birliyinin möhkəmlənməsində mənəvi dəyərlərimizin rolu" mövzusunda keçirilmişdir.

DQİDK-nın bölgə şöbələrinin və digər qurumların əməkdaşlarının, rayonların dini icma sədrləri və din xadimlərinin, QMİ-nin səlahiyyətli nümayəndələrinin, o cümlədən orta məktəb direktorları, müavinləri və psixoloqlarının, uşaq birliyi təşkilatları rəhbərlərinin və şagirdlərin iştirakı ilə keçirilən tədbirlər zamanı düzgünlük, humanizm, vətənpərvərlik, xeyirxahlıq, mərhəmət, milli-mənəvi dəyərlərə bağlılıq, böyüklərə hörmət, əməksevərlik ruhunda tərbiyə edilməsində əsas məsuliyyəti ailənin daşıdığı vurğulanmışdır.

Milli birliyin möhkəmlənməsində mənəvi dəyərlərin rolu barədə danışan natiqlər qeyd ediblər ki, hazırda



dövlət siyasətinin prioritet istiqamətlərindən birini də milli-mənəvi dəyərlərə və tarixi-mədəni irsə bağlılığın möhkəmlənməsi, adət-ənənələrin qorunması, mədəni-tarixi abidələrin mühafizəsi, mənəvi irsin öyrənilməsi təşkil edir. Natiqlər məktəblilərin zərərli vərdişlərdən və radikal dini təsirlərdən qorunmasının vacibliyini vurğulayaraq bu istiqamətdə dövlətin həyata keçirdiyi tədbirlərdən bəhs ediblər. Gənclərin radikal dini təsirlərdən, dini radikalizmdən qorunmasında təhsilin önəminə toxunublar.

Tədbirlərdə ölkəmizdə mövcud olan nümunəvi dövlət-din münasibətləri haqqında ətraflı məlumat verilib, bu günün gənclərinin gələcək nəslin davamçıları olaraq dini radikalizm və dini ekstremizm barəsində məlumatlı olmasının vacibliyi vurğulanıb. Ulu Öndər Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra milli-mənəvi və dini dəyərlərin dirçəldiyini qeyd edən natiqlər ölkəmizdə dövlət-din münasibətlərinin Ümummilli Lider tərəfindən çox böyük uzaqgörənliklə əsasının qoyulduğunu, bu gün bu münasibətlərin Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirildiyini diqqətə çatdırıblar.

Narkomaniyanın fəsadları və ölkəmizdə narkomaniyaya qarşı aparılan tədbirlərdən, zərərli vərdişlərə qarşı mübarizədə gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsinin əhəmiyyətindən, radikalizmin yaranma, yayılma və inkişaf səbəbləri, onunla mübarizə metodları, radikalizmdən qorunma üsullarından bəhs olunan konfranslar qarşılıqlı diskussiya şəklində baş tutub.

Tədbirlərin sonunda iştirakçıların təklifləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

# ELAN

*"Lənkəran rayonu Aşağı Nüvədi qəsəbə Küvənil kənd məscidi" dini icması 27 may 2008-ci il tarixində Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində 1308Lə1-491 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınıb. Dini icma təsisçilərinin 25 may 2022-ci il tarixli ümumi yığıncağında 02 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.*

*"Lənkəran rayonu Əşlə kənd məscidi" dini icması 03 mart 2008-ci il tarixində Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində 1308Lə1-445 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınıb. Dini icma təsisçilərinin 25 may 2022-ci il tarixli ümumi yığıncağında 02 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.*

*"Gəncə şəhəri Yeddinci Günün Adventistləri" dini icması 04 aprel 2002-ci il tarixində Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində 92 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınıb. Dini icma təsisçilərinin 25 may 2022-ci il tarixli ümumi yığıncağında 02 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.*

# CƏMİYYƏT və DİN

№ 05 (367) MAY 2022-ci il


## HEYDƏR ƏLİYEV FONDUNUN DƏSTƏYİ İLƏ QUBADA ƏNƏNƏVİ YƏHUDİ EVİ BƏRPA OLUNACAQ




Heydər Əliyev Fondunun dəstəyi ilə Qubada dağ yəhudilərinin yığcam yaşadığı Qırmızı qəsəbədə ənənəvi yəhudi evi bərpa olunacaq.

"Qırmızı qəsəbədə yəhudilərin ənənəvi evinin bərpası layihəsi" Amerika Birləşmiş Ştatlarının, İsrailin ölkəmizdəki səfirlikləri və Dağ Yəhudilərinin İrsi Mərkəzi ilə birlikdə həyata keçirilir.

Mayın 23-də Qubada layihənin başlanması ilə əlaqədar təşkil olunan tədbirdə Heydər Əliyev Fondunun departament direktoru, Milli Məclisin deputatı Soltan Məmmədov, Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev, Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfiri Örl Litzenberqer, İsrailin ölkəmizdəki səfiri Corc Dik iştirak edib.

Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev çıxışında Qubanın tarixi, son dövrlərdə keçdiyi inkişaf yolu, burada yaşayan azsaylı xalqlar, rayondakı tolerantlıq mühiti haqqında ətraflı məlumat verib. Bildirilib ki, Qırmızı qəsəbədə sinaqoqlar, yəhudi dinini öyrədən dərnəklər, turist informasiya mərkəzi və bir çox digər görməli yerlər var: "Prezident İlham Əliyevin xüsusi önəm verdiyi multikulturalizm ənənələrinin əsl nümunələrindən birini Qubanın Qırmızı qəsəbəsində görmək olar. Burada dağ yəhudiləri uzun illərdir tolerantlıq şəraitində yaşayırlar".

Heydər Əliyev Fondunun departament direktoru, Milli Məclisin deputatı Soltan Məmmədov bildirib ki, bu gün Azərbaycan bütün regionda sülh, əməkdaşlıq, dostluq, multikulturalizm dəyərləri və birlik siyasətini təbliğ edir. Qazandığımız və regionda nümayiş etdirdiyimiz bu dostluq siyasəti xalqımızın həmrəyliyi və beynəlxalq əməkdaşlarımızla olan sıx münasibətlərimizin nəticəsidir. Heydər Əliyev Fondu yarandığı gündən Azərbaycanın tarixi, mədəniyyəti və milli dəyərlərinin dünyada təbliği ilə yanaşı, həm ölkəmizdə, həm də Azərbaycandan kənarda müxtəlif dinlərin qardaşlığı, xalqların birliyi və dostluğu ilə bağlı çoxsaylı layihələr həyata keçirib.

Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfiri Örl Litzenberqer Azərbaycanda mədəni müxtəlifliyin bariz nümunəsi olacaq layihədə iştirak etməkdən məmnunluğunu ifadə edib: "Burada Azərbaycan, ABŞ və İsrail bayraqlarının yanaşı dayanması məndə çox dərin təəssürat yaradır. Bu üç bayraq dini tolerantlıq və multikulturalizm siyasətinin əsas qayəsi, istiqaməti seçən ölkələri təmsil edir. Tolerantlıq bir-birimizin fərqliliklərini anlamaq və buna dözmək deyil. Bu müxtəliflikləri qeyd etmək və bəşəriyyətin dəyərləri olan bu fərqlilikləri qucaqlamaqdır. Biz bundan əvvəl də Heydər Əliyev Fondu və İsrail səfirliyi ilə ayrı-ayrılıqda bir sıra layihələr həyat keçirmişik. Amma bu üç qurumun birlikdə həyata keçirdiyi ilk layihə olacaq. Bununla da daha bir ənənənin əsası qoyulur".

İsrailin ölkəmizdəki səfiri Corc Dik Qubada həyata keçirilən unikal layihəyə dəstək göstərən tərəfdaşlara təşəkkür edib: "Qırmızı qəsəbədə Fətəli xan küçəsindən keçdik. Fətəli xan təxminən 300 il əvvəl bu yaşayış məntəqəsinin əsasını qoyub. Bu qəsəbənin salınması dağ yəhudilərinin təhlükəsizliyinin təmin olunması, onların dini etiqadlarını rahat şəkildə həyata keçirməsi, eyni zamanda onların tərəqqisi və rifahı, uşaqlarını rahat böyütməsi üçün vacib idi. Sonradan bura Azərbaycanın digər yerlərindən, Rusiyadan yəhudilər toplaşıblar. Buna görə də burada hər icmanın öz sinaqoqu var. Sonradan bura "Qafqazın Yerusəlimi" adı verilib. Keçmişə səyahət etmək imkanım olsaydı, Fətəli xanla görüşüb ona xoş niyyətin bu gün də davam etdiyini çatdırardım".

Qırmızı qəsəbə sakini Nisim Nisimov çıxış edərək Ümummilli Lider Heydər Əliyevin, Prezident İlham Əliyevin qəsəbəyə səfərləri, onların yerli icmaya diqqət və qayğısı barədə danışıb.

Yüz ildən çox yaşı olan yəhudi evinin bərpasının əsas məqsədi yerli etnik və dini mədəniyyəti qorumaq, eyni zamanda, yeni turizm imkanları yaratmaqdan ibarətdir.

## Bakı və Abşeron üzrə namaz vaxtları (İyun - 2022)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 03:29 | 05:13 | 12:38 | 17:49 | 20:21 | 21:40 |
| 2 | 03:29 | 05:12 | 12:38 | 17:49 | 20:21 | 21:41 |
| 3 | 03:28 | 05:12 | 12:39 | 17:50 | 20:22 | 21:42 |
| 4 | 03:27 | 05:12 | 12:39 | 17:50 | 20:23 | 21:43 |
| 5 | 03:27 | 05:11 | 12:39 | 17:51 | 20:24 | 21:44 |
| 6 | 03:26 | 05:11 | 12:39 | 17:51 | 20:24 | 21:45 |
| 7 | 03:25 | 05:11 | 12:39 | 17:52 | 20:25 | 21:46 |
| 8 | 03:25 | 05:10 | 12:40 | 17:52 | 20:25 | 21:46 |
| 9 | 03:24 | 05:10 | 12:40 | 17:52 | 20:26 | 21:47 |
| 10 | 03:24 | 05:10 | 12:40 | 17:53 | 20:27 | 21:48 |
| 11 | 03:24 | 05:10 | 12:40 | 17:53 | 20:27 | 21:49 |
| 12 | 03:23 | 05:10 | 12:40 | 17:53 | 20:28 | 21:49 |
| 13 | 03:23 | 05:10 | 12:40 | 17:54 | 20:28 | 21:50 |
| 14 | 03:23 | 05:10 | 12:41 | 17:54 | 20:29 | 21:50 |
| 15 | 03:23 | 05:10 | 12:41 | 17:54 | 20:29 | 21:51 |
| 16 | 03:23 | 05:10 | 12:41 | 17:55 | 20:29 | 21:51 |
| 17 | 03:23 | 05:10 | 12:41 | 17:55 | 20:30 | 21:52 |
| 18 | 03:23 | 05:10 | 12:42 | 17:55 | 20:30 | 21:52 |
| 19 | 03:23 | 05:10 | 12:42 | 17:56 | 20:30 | 21:53 |
| 20 | 03:23 | 05:10 | 12:42 | 17:56 | 20:31 | 21:53 |
| 21 | 03:23 | 05:10 | 12:42 | 17:56 | 20:31 | 21:53 |
| 22 | 03:23 | 05:11 | 12:42 | 17:56 | 20:31 | 21:53 |
| 23 | 03:23 | 05:11 | 12:43 | 17:56 | 20:31 | 21:53 |
| 24 | 03:24 | 05:11 | 12:43 | 17:57 | 20:31 | 21:53 |
| 25 | 03:24 | 05:11 | 12:43 | 17:57 | 20:32 | 21:54 |
| 26 | 03:25 | 05:12 | 12:43 | 17:57 | 20:32 | 21:54 |
| 27 | 03:25 | 05:12 | 12:43 | 17:57 | 20:32 | 21:53 |
| 28 | 03:25 | 05:12 | 12:44 | 17:57 | 20:32 | 21:53 |
| 29 | 03:26 | 05:13 | 12:44 | 17:57 | 20:32 | 21:53 |
| 30 | 03:27 | 05:13 | 12:44 | 17:57 | 20:31 | 21:53 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

*• Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## VYETNAMDA DÜNYANIN ƏN UZUN ŞÜŞƏ KÖRPÜSÜ AÇILIB



Vyetnamın turistik xüsusiyyətləri ilə seçilən Son La əyalətində uzunluğu 632 metr olan dünyanın ən uzun şüşə körpünün açılış mərasimi keçirilib. Mərasimdə Vyetnam və Ginnesin Rekordlar Kitabı rəsmiləri də iştirak ediblər. Şüşə altlığının qalınlığı 40 millimetr olan və 450 nəfəri daşımaq qabiliyyətinə malik "Ağ Əjdaha" adlı şüşə körpü dünyanın ən uzun körpüsü kimi Ginnesin Rekordlar Kitabına düşüb.

Əvvəlki rekord Çinin Quandun əyalətindəki 526 metr uzunluğundakı körpüyə aid idi.

## MİSİRDƏ QƏDİM DÖVRLƏRƏ AİD 250 MUMİYA VƏ 150 HEYKƏL TAPILIB



Qədim Misirdə yaşayış məntəqəsinin və kral məzarlarının yerləşdiyi tarixi Saqqara bölgəsində 2018-ci ildən bəri aparılan arxeoloji tədqiqatlar zamanı e.ə 500-cü illərə aid olduğu güman edilən 250 mumiya və 150 heykəl tapılıb. Bildirilib ki, bu, 2018-ci ildən bəri Sakkarada aşkar edilən ən böyük kəşfdir. Misir Tarixi Əsərlər Ali Şurasının baş katibi Mustafa Vəzirinin məlumatına görə, məzarlıqda, həmçinin "Misir ölülür kitabı"na məxsus papirus da aşkar edilib.

Mustafa Vəziri bildirdi ki, tapılan papirus lazımı araşdırmalar üçün Qahirədəki Misir Muzeyindəki laboratoriyaya göndərilib.

### Yadigar söz

***Albert Eynşteyn***

*İnsanı ayaqda saxlayan skelet və əzələ sistemi deyil, prinsipləri və inanclarıdır.*


Baş redaktor **Səyyad ARAN**

**Redaksiya şurası:**
**Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Raman DADAŞOV** (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
Telefon: 505 78 16; 505 78 19
E-mail: redaksiya@scwra.gov.az

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:**
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894